Orxan Pamuk

# Gizli üz

## ***Ssenari***

Tərcüməçilər: **Arif Əmrahoğlu, Paşa Əlioğlu**

*Minlərlə, minlərlə sirr bilinəcək,*
*O gizli üz göstərincə özünü.*
**Fəridəddin Əttar**

**Şəhərlər şəhəri**

Tıqqıldayan iri divar saatı......
Titr yazıları
Gecə. Şəhərlər şəhəri İstanbulun mənzərəsi. Gecənin lacivərdi içərisində məscidlərin, gəmilərin, sarayların, maşınların işıqları: Nağılvari bir mənzərə...
Fotoqraf hekayəsinə başlayır.
Titr yazıları davam edərkən yalnız bir səs, yorğun, kədərli bir səs eşidilir...
Fotoqraf: (səs) Mənə bir hekayə danış deyirsiniz... Olar, sizə bir hekayə danışacam, amma qəlbimi aça biləcəmmi, bilmirəm... Hekayə danış deyəndə, ağacları düşünürəm... Yuxumdakı ağacları... Vaxtilə bir hekayə danışmışdım, qəlbimi açmışdım... Amma danışan yalnız mən deyildim. Hərə bir hekayə danışırdı... Mənimsə təsəvvürümdəki yalnız ağaclarıydı.... O zaman cavan idim... Xeyr, mən daha cavan deyiləm.
Fotoqraf görünür... Vaxtından əvvəl düşmüş iyirmi yaşlarında bir gəncdi. Üst-başı səliqəsizdi, üzü tüklüdü, kədərlidi, amma büsbütün kefsiz də deyil... Ağır, qalın pərdənin qarşısında, bəlkə pavilyonda, bəlkə əyləncə yerində, bəlkə də bunlara oxşar bir məkandadı. Belə yerlərə alışqan olduğu hiss edilir... Özünə qarşı göstərilən maraqdan, hekayə danışmaqdan məmnundu. Kədərlə, hüznlə, inanaraq danışır, amma danışığında yumor duyğusu da var...
Fotoqraf: Cavanlığım çox geridə, danışacağım hekayənin başlanğıcında qaldı... O zamanlar gəncdim, odlu-alovluydum, atamın üzünə ağ olmuşdum. Fikrim-zikrim İstanbulda oxumaqdaydı... Əvvəlcə İstanbulda, sonra oxumaqda... Atamın sözünə qulaq asmadım, ondan ayrıldım... O da xərcliyimi kəsdi... Bir qohumumun köməkliyilə bu işi tapdım. Pavilyon fotoqraflığının peşə ola biləcəyi ağlıma belə gəlməzdi. Atamla uzağı altı aya barışacağımızı güman edirdim. Xeyr, altı ay sonra atam deyil, sirli bir adam axtardı məni... Sonralar xidmətçi olduğunu öyrəndiyim bu adam məni şəhərin ucqar küçələrindəki bir evə apardı... Orada bir qadın..., gözəl bir qadın təklif elədi ki, pavilyonlarda, içki məclislərində şəkillər çəkib ona çatdırım... Hər səhər... Şəkillərin nəyinə lazım olduğunu demədi. İşə görə çoxlu pul təklif elədi. Razılaşdım.
Ekranda Fotoqrafın gətirdiyi şəkillərə baxan qadının əli görünür. Bir-bir şəkilləri qarışdırır. Pavilyonlarda çəkilmiş şəkillər... Kədərli, dərdli üzlər... İçki içən bığlı kişilər. Bomboz, ya da heç bir məna bildirməyən sifətlər. Masaların ətrafına yığışmış saysız-hesabsız kişilər... Qəribə vəziyyətdə duranlar, çatıq qaşlılar, mənasızcasına gülənlər, kameraya yan baxanlar, qədəh qaldıranlar, dərdlilər... Bir-birinə bənzəyən,

bənzəməyən kişi üzləri...
Fotoqraf: (səs) Bütün gecəni şəkil çəkəndən, şəkilləri çıxardandan sonra sabaha yaxın balaca otağımda gözümün acısını alıb yola düşürdüm. Şəhərin yuxudan yenicə oyandığı dumanlı alatoranda çılpaq şabalıd ağaclarının altından keçərkən qadının şəkildə nə axtardığını fikirləşirdim.
Hərəkət edən maşından görünən şabalıd ağacları, ağacların budaqları ağır-ağır, səssizcə axır...
Fotoqraf: (səs) Bu iş iki ilə yaxın çəkdi... Hər səhər ehtirasla əlimdəki şəkilləri qapıb masasına oturar və şəklini çəkdiyim o üzlərə uzun-uzadı baxardı... Haqqında bildiyim bircə atasıyla çəkdirdiyi uşaqlıq şəkli idi... İllər keçəndən sonra nə axtardığını başa düşmüşdüm.
Qadının evində
Böyük bir divar saatı tıqqıldayır. Səhər. Qadın geniş və boş bir otaqdakı masasının arxasındadı, Fotoqraf əks tərəfdə, onun qarşısındakı divanda oturub. Qadın otuz beş yaşlarındadı. Gözə gəlimlidi... Fotoqrafın gətirdiyi şəkilləri nəzərdən keçirir. Bəzilərini ayırır, böyüdücü ilə baxır, bəzilərini isə əhəmiyyət vermədən bir tərəfə qoyur.
Gördüyü işdə ustalaşıbdı, cəld hərəkət edir, qayçıyla şəkillərdən birinin üzünü kəsir. Siqaret çəkir.
Divanda oturan Fotoqraf dalğın-dalğın albomu vərəqləyir, aradabir gözucu qadını izləyir.
Fotoqrafın baxışı divardakı çərçivəyə salınmış şəklə zillənir.
Şəkildə cokey şalvarı geyinmiş qırx yaşlarında bir kişi və on yaşlarında kiçicik bir qız 60-cı illərin bir Amerika maşınının qabağında durublar... Arxada iri, möhtəşəm bir ağac...
Qadın şəkilləri bir filatelist diqqətiylə nəzərdən keçirir. Əlində siqaret var. Bir şəklə xeyli baxır, gülümsəyir.
Qadın: Bu adamın üzü o qədər boşdu, elə acıqlıdı ki, baxan kimi bəlli olur: çox güman ki, üç uşağı var. Uşaqlar gecə-gündüz dalaşırlar. O isə yuxusunda bağçalı bir ev görür.
Başqa şəklə keçir. Bezmiş kimidi. Sonra başqa bir şəklə...
Başqa bir şəkli nəzərdən keçirəndə qəflətən təsirlənir. Şəklə böyüdücüylə diqqətlə baxır.
Fotoqraf Qadının fərqli üz tapdığını sezir... Qadın masasından qalxıb pəncərəyə sarı gedir, gün işığında şəklə bir daha baxır.
Qadın: Başqa şəkli varmı bu adamın?
Fotoqraf çantasından bir dəstə şəkil çıxardır, Qadına yaxınlaşır.
Fotoqraf: Hamısı burdadı...
Fotoqraf qalaq-qalaq şəklin içindən birini seçib Qadına uzadır.
Şəkildə üç kişi var, qədəh toqquşduran üç kişi.
Soldakı üzü mənalı kişi Qadının diqqətini çəkir.
Qadın: Başqa?
Fotoqraf: Yoxdu, başqasını çəkmədim.
Qadın: (əsəbi) Niyə?
Fotoqraf: O biri üzlər kimi üzdü...
Qadın oturur. Şəkildəki üzə diqqətlə baxır.
Qadın: Yox... Üzü elə bil danışır. Atam həmişə deyərdi ki, mənalı üz həmişə bir hekayə danışır...
Fotoqraf: Kimdi bu adam?
Qadın: Bilmirəm... (öz aləmindədi) Amma sanki elə bil illərdi onu tanıyıram.
Qadın sevincək soruşur.
Qadın: Onu tapa bilərsənmi?
Fotoqraf: (özünü itirir) Qarsonu tanıyıram. Soruşaram.
Qadın məmnundu, gülümsəyir. Yenidən şəklə baxıb xəyala dalır.
Qadın: Başqa şəkillərini də çək... O olduğuna tam əmin olmaq istəyirəm...
Fotoqraf çıxır.
Qadın yenidən şəkildəki üzə baxır. Ağlına nəsə gəlir.
Tələsik gedib küçə qapısını açır.
Pillələnlərlə düşən Fotoqrafı səsləyir.
Qadın: Ondan həyatda ən çox nə istədiyini soruş...
Qadın qapını örtür. Tək qalınca sanki xəyali bir havaya bürünür. Təkbaşına oyun oynayan balaca bir qız kimi öz-özünə mızıldanaraq danışır.

Elə bil nəsə xatırlayır.
Qadın: Yuxularında nə gördüyünü soruş.... Yuxularının tamamlanıb-tamamlanmadığını... Yoxsa unudurmu? Yuxularında üzlər silinirmi, bir-birinə qarışırmı? Xatırlayırmı, özü ola bilirmi?
Meyxanədə.
Fotoqraf Bəyoğlu küçələrindən keçir.
Bir meyxanəyə girir.
Vərdiş elədiyi məkanda olduğundan rahatca arxa tərəfə, mətbəxə gedir. Mətbəxin bir tərəfində kök Qarson güzgünün qabağında üzünü qırxır. Üzü sabunludu.
Solda bir aşpaz kartof soyur.
Fotoqraf kök Qarsona girişir.
Fotoqraf: Ülgüclə qırxırsan...
Qarson gözünü güzgüdən çəkmir.
Qarson: Bir dəfə ciletlə qırxım dedim, elə bildim köpüyün altından başqasının üzü çıxacaq. Hah ha... Ülgücümü düz otuz beş ildi işlədirəm. O da mənə xəyanət eləməyib heç... Bax, bax... Altından öz üzüm çıxır...
Fotoqraf çantasından Saatsazın şəklini çıxarıb ona göstərir.
Fotoqraf: Bunu tanıyırsanmı?
Qarson gözünün ucu ilə baxır.
Qarson: Xeyr.
Fotoqraf bu dəfə şəkildəki başqa adamı göstərir.
Fotoqraf: Bəs bunu?
Qarson: Niyə soruşursan? (Səssizlik) Xanımımın həmşəhərlisidi o... Bələdiyyə avtobusunda sürücüdü...
Fotoqraf: Hansı xətdə?
Qarson: Eyup-Eminönü.
Eyup-Eminönü avtobusunda
Fotoqraf əyləşdiyi avtobus oturacağından sürücü kabinəsinə baxır.
Kabinədəki güzgüdə sürücü görünür. Yol boyunca evlərin, köhnə tikililərin, hotelyelərin mənzərələri...
Fotoqraf sürücüyə yaxınlaşır, şəkli göstərir.
Sürücü əvvəlcə oxşada bilmir, sonra şəkildəki kişini tanıyır.
Sürücü: Sən çəkmisən bunu...
Fotoqraf: Dostumdu, onu axtarıram... Pulqabını  unudub.
Sürücü: Unudar., huşsuzdu... Saatsazdı.
Fotoqraf: Dükanı hardadı?
Sürücü: Dayanacağa çatanda göstərərəm.
Saatsaz dükanı
Paltarlar sərilmiş bir küçə. Qocaman çinar ağacı, köhnə bir ev.
Fotoqraf saatsaz dükanına yaxınlaşır.
Vitrinə baxır. İçərini görməyə çalışır.
Həyəcan və maraqla qapını açarkən qapıya bağlı çan çalınır.
Çaşır. Saat tıqqıltıları.
Piştaxtanın önündə şıq geyimli, gödəyin biri, arxasında Saatsaz.
Saatsaz təmir elədiyi saatı müştəriyə qaytarır.
Saatsaz: Bəəli, həmişə xoş saatlar göstərsin sizə.
Gödək zəncirli saaatı qulağına tutur, bəxtiyarlıqla dinləyir.
Gödək:  İşləyir!
Saatsaz: Əvvəlki səsini də çıxardırmı?
Gödək: (məmnun) Lap əvvəlki səsidi.
Gödək səliqə ilə saatını ciletinin cibinə qoyub çıxır. Çanın səsi.
Saatsaz Fotoqrafı görmüşdür.
Saatsaz: Xoş gəldin.
Fotoqraf qolundakı saatı çıxarıb piştaxtaya qoyur.
Fotoqraf: Buna bir baxarsanmı?

Saatsaz: Nə olub?
Fotoqraf: (uydurur) Nəsə dərdi var, amma bilmirəm nədi.
Saatsaz saatı alır, ustalıqla açır. Barmaqları vərdişlidi. Həyəcanlı anlar...
Fotoqraf: Fikirləşirdim ki, daha saatlar xarab olmaz.
Saatsaz: Niyə?
Fotoqraf: Çünki daha saatları insan düzəltmir.
Saatsaz: Amma səninkini insan düzəldib. Dinlə (saatı Fotoqrafa uzadır). Yayı boşalıbmış. Dərdi olduğunu nədən bildin?
Fotoqraf: Hiss elədim... Məni narahat edirdi...
Saatsaz: Hamı belə hiss eləsəydi, dünya bambaşqa bir aləm olardı... Heç kimin ağlına gəlmədiyi bir detal taxacam saatının qəlbinə. Nə saatın, nə də sən narahat olacaqsan daha.
Saatsaz piştaxtadan qalxır. Dükanın başqa tərəfinə keçir.
Fotoqraf dükanı nəzərdən keçirir, həyəcanlıdı.
Saatlar, saat tıqıltıları.
Bir biblo1 saatın görümlü rəqqasına toxunur.
Saatsaz əlindəki bir detalla geri qayıdır.
Fotoqraf: Rahat olmaq üçün belə bir dükandamı işləmək lazımdı?
Saatsaz: Sirr dükanda deyil, saatların içindədi.
Fotoqraf: Nədədi bu sirr?
Saatsaz: Nədə olduğunu dəqiq bilmirəm... Amma axşam dükanı bağlayıb evə gedirəm... Evdə səssizlikdi. Elə səssizlikdi ki, sanki dükandakı saatların tıqqıltısını eşidirəm. Qapıları bağlayıb, pəncərə örtüklərini endirəndən sonra qaranlıqda saatların tıq-tıq işlədiyini yadıma salıram. Hamısı boş qaranlıq dükanda, bir anda... Elə bunun özü də rahatlığımı əlimdən alır, cavan oğlan...
Saatın işi qurtarıb. Saatsaz saatı Fotoqrafa uzadır.
Fotoqraf: Borcum?
Saatsaz yox mənasında başını yelləyir.
Fotoqraf bir anlığa cəsarətə gəlir.
Qadının tapşırığını xatırlayır.
Fotoqraf: Həyatda ən çox nə olmasını istəyirsən?
Saatsaz bir anlığa fikrə gedir.
Saatsaz: İnsanlara saatları anlatmaq istərdim... Mexanizmlərin incəliyini, yayların qorxuncluğunu, çarxların qaranlığını... İndi heç kim saatın nə olduğunun fərqində deyil... Bəlkə də elə buna görə insanlar kədərlidilər, bəlkə də elə buna görə hekayələrini danışa bilmirlər... Əqrəblə yelqovanın arxasında necə bir canın olduğunu belə hiss eləmirlər... İnsanlara saatların sirrini başa salmaq istərdim... Onda yuxudan təzəcə oyanan kimi dünyaya gözlərini açardılar... Kədərlərindən qurtular, bəlkə də hekayələrini danışa bilərdilər...
Fotoqrafla Saatsaz bir anlığa göz-gözə gəlirlər.
Saatsaz öz alətlərinə və piştaxtaya sarı əyiləndə Fotoqraf dükandan bayıra çıxır.
Qapının qabağında bir-iki addım atıb dayanır. Nəsə xatırlayıbdı.
Fotoqraf yenidən dükana qayıdır.
Tez-tələsik Saatsazın şəklini çəkir.
Bir də çəkmək istəyir, Saatsaz əliylə dayanmasına işarə edir.
Fotoqraf: Sağ ol!
Fotoqraf çıxanda Saatsaz öz dünyasına qayıtmışdı. Qapının çanı!
Fotoqrafın evi
Fotoqraf lenti çıxardır.
Dərmanların köməyilə Saatsazın üzü tədricən aydınlaşır.
Fotoqraf şəkli götürür və diqqətlə Saatsazın üzünə nəzər salır.
Fotoqraf masasının arxasında məktub oxuyur.
Məktubu qatlayıb zərfə qoyur.
Kədərlidi.
Qadının evi

Evin ümumi görünüşü.
Qadın masanın arxasındadı, Saatsazın şəkildəki üzünə baxır.
Qadın: Saatsaz olduğunu bilirdim... Yalnız Saatsazın üzü bu qədər qəribə, çaşdırıcı ola bilər. Hər şey var bu üzdə: kədər, qorxu, eşq... Elə bil xəritədi... Yanılmamışam.
Fotoqraf divanda oturmaqdadı. Narahatdı. Qısqanır.
Fotoqraf: Sənin tayın deyil o!
Qadın: Mənə onun yuxularını bir daha danış!
Fotoqraf: (əsəbi) İnsanlara saatlardan danışmaq istəyir... Adamlar yalnız bu zaman kədərlərindən qurtara, hekayələrini danışa bilərlər...
Qadın ayağa qalxır, dalğın-dalğın gəzişir.
Qadın: Onun öz sözləriylə de.
Fotoqraf yadına salmağa çətinlik çəkir.
Qadın evin saatlı tərəfinə gedir.
Fotoqraf: Elə bil onun sözləri yoxuydu. Adamlar var ki, sənə nəsə danışırlar. Evə qayıdırsan, başın onun hekayələriylə dolu olur, amma həmin adamın heç bir sözünü xatırlaya bilmirsən.
Qadın evin saat olan tərəfində gözdən itir.
Fotoqraf bunun fərqinə varır. Maraqlanır. Səssizcə o tərəfə yaxınlaşır.
Saatın tıqqıltısı.
Fotoqraf saat olan tərəfə çatanda Qadını tənhalıq içində görür.
Masanın üstündə ilk dəfə gördüyü üç şey var: Güzgü, ütü, lampa.
Qadın Fotoqrafın baxışını tutur. Bir az utancaqdı, etiraf eləmək qəsdindədi.
Qadın: Yuxularımda çox gözəl şeylər görürəm... Amma səhər ayılanda heç birini xatırlamıram... Xatırladığım yalnız bunlardı... Bir güzgü, bir ütü, bir lampa...
Fotoqraf başa düşməyə çalışaraq masanın üstündəki yuxu əşyalarına baxır.
Qadın: Gülüşü necəydi?
Fotoqraf: Kimin?
Qadın: Saatsazın!
Fotoqraf: Kədərliydi.
Qadın pəncərədən çölə baxır. Öz aləmindədi...
Qadın: Kədərliydi, elə deyilmi? (Birdən hazırlaşır) Məni onun yanına apar!
Fotoqraf: Başqa şəkillər də var, baxmayacaqsanmı?
Qadın: İki il birlikdə arayıb-axtardıq... İndi məni ora apar... Xahiş edirəm...
Fotoqraf: (qətiyyətsiz) İndimi?
Qadın: İndi!
Qadın çıxır.
Fotoqraf çarəsizdi, hirslidi.
Fotoqraf: O, sənin axtardığın deyil!
Mavi maşının içində
Qadının sürdüyü 60-cı illərdən qalma lacivərd Amerika maşını Tarlabaşı prospektindən sürətlə şütüyür.
Fotoqrafın gözünə güzgüdən asılmış nəzərlik sataşır, ona diqqətlə baxır.
Qadın: Atam asıb onu... Məni qorusun deyə... Çünki iyirmi il sonra bu maşınla bir üz axtaracağımı bilirdi... Atam həmişə deyirdi ki, günlərin bir günü qəsəbəyə qayıdacağıq... Bunu orada gözəl ərəb atlarından asarlarmış... Mənim yaxşı ata minməyimi istəyirdi həmişə.
Maşın əvvəlki sürətlə Eyupa yaxınlaşır.
İndi ikisi də dalğındırlar.
Fotoqraf: Evdən məktub gəlib... Atam xəstədi.
Səssizlik.
İkisi də sanki öz dünyalarına qapılıblar. Qadın öz-özünə danışırmış kimi açıqlayır.
Qadın: Bir neçə dəfə bütün o üzlərə niyə baxdığımı sənə başa sala biləcəyimi fikirləşmişəm.
Ağac görüntüsü. Budaqları çılpaq.
Maşın sürətlə yoluna davam edir.
Qadın: İnsanlara baxanda başa salmaq istəyirəm... Amma sonra fikrimdən daşınıram.

Saatsaz dükanına az qalmış
Mavi maşın yollardan qıvrılaraq Saatsaz dükanı yerləşən məhəlləyə girir.
Qadın dükana otuz-qırx metr qalmış maşının surətini azaldır, qarşı səkiyə yaxınlaşdırır.
Səssizlik.
Qadın: Hansıdı?
Fotoqraf: (işarə edir) İrəlidəki.
Qadın (təlaşla): Barmağınla göstərmə.
Saatsaz dükanının qarşısından şələli bir odunçu keçir.
Fotoqraf: İndi qarşısından odunçu keçdi. Bax oradı.
Qadın: Odumu?
Dükandan dəri gödəkçəli bir adam çıxır. Saatını qoluna taxır.
Fotoqraf: Yox.
Qadın: Təbii ki, yox.
Təlaşından, çaşqınlığından Qadın üzr istəyirmiş kimi gülümsəyir.
Çantasında siqaret qutusunu axtarıb tapır. Ağzına aldığı siqareti Fotoqraf alışqanla yandırır.
Qadın əsəbi və təlaşlıdı.
İkisi birlikdə küçəyə baxırlar.
Boş küçədə səksək oynayan iki qız.
Maşının arxa tərəfindən gələn iki kişi danışa-danışa yanlarından keçirlər.
Yekə adam: Kəmərləri sıxmazsanız, mən bu işdə yoxam dedim.
Balaca adam: Ağabəy, kəmərləri olduğunu nə bilirsən?
Yekə Adam: Sən nə deyirsən! Mən bu şəhərə ilk dəfə gəldiyim gün hotel otağında vallahi... yeddi nəfəri... Sonra təbii dərdini başa sala bilirsən, başa sal.
Onlar Saatsaz dükanının qarşısından keçərək uzaqlaşırlar.
Fotoqraf səbirsizliklə maşının radiosunu qarışdırır. Başqa dünyaları xatırladan musiqi və səslər.
Qadın: (şübhəli) Dükanın o dükan olduğuna əminsənmi?
Fotoqraf: Əminəm.
Yenə səssizlik.
Qadın: (əsəbi) Görən məni necə qarşılayar? Salam, necəsiniz? Əl verəcəyik. Ona atamdan danışacam. Əlləri haqqında bir daha danışarsanmı?
Fotoqraf: (başdan edərək) İşini bilən əllərdi...
Qadın: Gülüşü? Gülüşü necədi?
Fotoqraf: Kədərlidi.
Səssizlik.
Qadın: Əsəblərim pozuldu.
Maşının arxasından, uzaqdan bir əskiçi görünür.
Əskiçi: Əskiçi... Əski şeylər alıram, əskiçi...
Fotoqraf: Bax! O! Odu!
Saatsaz dükanından çıxıb. Dükanının qapısını bağlayır.
Qadın: (təlaşla) Görmürəm!
Fotoqraf: Odu!
Saatsaz küçənin o biri tərəfi ilə irəliləyərək uzaqlaşır. Bir anlıq dayanır. Ciblərində nəsə axtarır. Sonra yoluna davam edir.
Saatsaz küçəylə ağır-ağır uzaqlaşarkən Qadın maşını işə salmaq istəyir.
Mühərrik ilk anda işə düşmür.
Qadın təkrar cəhd göstərir...
Mühərrik işə düşür.
Maşın ağır-ağır Saatsaza doğru yaxınlaşır.
Qadın da, Fotoqraf da çox həyacanlıdılar.
Maşın ehmalca Saatsaza yaxınlaşır.
Saatsaz yaxınlaşan maşını hiss edir.
Öz aləmindədi, amma bir anlığa geri boylanır.

Qadının gözləri onun üzündədi.
Saatsaz bir anlığa  Qadına baxıb irəli dönür.
Qadının ehtiraslı marağının fərqinə vardığından ona bir də baxır.
Qısa müddətə də olsa, Qadın illərlə axtardığı üzü ilk dəfə görür.
Gözü yolda deyil, Saatsazdadı.
Həyəcanlı siqnal səsi!
Qırmızı bir  kamyon qarşılarına çıxır.
Qadın sükanı sağa çevirir, maşını kamyondan zorla qurtarır.
Saatsaz başqa tərəfə üz tutub, pilləkənlərdən uzaqlaşmışdır.
Qadın ona çatmaq üçün maşının sürətini artırır.
Maşını keçid çıxışı olan başqa küçəyə sürür.
Orda da heç kim yoxdu...
Qadın bir anlığa dayanır. Dərindən nəfəs alır.
Qadın: İtirdik!
Maşının sürətini artırır.
Yağış çisələməyə başlayır.
Şüşə silənlərin musiqisi.
Maşın Haliç  boyu uzanan sahil yoluyla irəliləyir.
Qadın xatirələrdən doğan duyğulu səslə danışa-danışa maşını sürür.
Qadın: Mən uşaq olanda atam bəzən qəflətən yoxa çıxırdı... Bəzən oyun oynadığımıza görə yoxa çıxırdı... Evin içində bir yerdə, otaqların birinin güncündə tapacağımı fikirləşir, həyəcanla onu axtarırdım. Bəzən də xəbərsiz-ətərsiz yoxa çıxardı... Əvvəl-əvvəl oyun oynadığını güman edirdim. Hardasa gizlənib, demək, oyun oynayır, tez axtarıb tapım...
Atam ucaboyluydu, arıq idi... Üzü yumşaq, baxışları da kədərli... (gözləri yaşarır). Amma həmişə elə deyildi... Səhv bir iş görəndə qaşları çatılırdı, üzündə hər şey bir-birinə qarışırdı. Belə vaxtlar, mənə hirsləndiyi vaxtlar ortalıqdan yoxa çıxırdı. (Gözlərindən yaş axmağa başlayır). Acığın tutmasın, nə olar, deyirdim. Ata daha yaxşı minəcəm... Bərk-bərk yapışacam... yəhərin üstündə dimdik duracam... Sən yoxa çıxanda  dözə bilmirəm. Evin içini saatlarla axtarar, qırx dəfə baxdığım yerlərə təkrar-təkrar baxardım. (Artıq ağlamağa başlayıbdı). Hardasan, ata, deyərdim. Daha ortaya çıx. Bir də eləməyəcəm... Hava qaralır, qorxuram, artıq gizlənmə, istədiyin kimi olacam... Mənə acığın tutmasın, daha gizlənmə... Mənimlə danış, nə olar, ev bomboşdu, nə olar, nə olar...
Haliç  arxasındakı bir yerdə
Maşın naməlum yerdə,  kənara çəkilərək dayanıbdır.
Gözə adam dəymir. Yağış çisələyir.
Qadın hələ də için-için  ağlamaqdadı.
Fotoqraf çarəsizcəsinə ona baxır.
Ehmalca tərpənir, əli onun  saçlarına sarı gedir.
Bir anlığa dayanır, sonra oxşamağa başlayır.
Fotoqraf: Ağlama, ağlama, xahiş edirəm...
Qadın bir az toxdayır. Səssizlik.
Qadın: Yaman susadım... Su gətirərsənmi mənə?
Fotoqraf: Sumu?
Qadın: Su.
Fotoqraf ətrafa baxır, baqqal dükanını görüb maşından düşür. Qadın maşında təkdi, öz aləmindədi.
Fotoqraf baqqal dükanına girir.
Fotoqraf: Su varmı?
Baqqal: (yaxşı eşitmir) Anlamadım?
Fotoqraf: Su! Su varmı?
Baqqal: Var.
Fotoqraf əlində su şüşəsi dükandan çıxır.
Amma  maşınla Qadın yoxdu.
Fotoqraf boş yola baxır.

Təklik, çarəsizlik duyğusu.
Fotoqraf evində
Fotoqraf yatağına uzanıb, gözlərini tavana dikib. Saatsaz dükanındakı yüzlərlə saatın tıqqıltısı. Saatların görüntüsü: Yalnız qaranlıqda tıqqıldayan yüzlərlə saat.
Səhərin aydınlığında Fotoqraf uzandığı yatağından qalxır. Masasına keçir. Bir müddət yeni çəkdiyi şəkillərə baxır.
Dalğındı.
Birdən qətiyyətlə şəkilləri toplayıb, dəstələyir.
Fotoqraf Qadının boş evində
Fotoqraf sürətlə Qadının evinə girir.
Eyni qətiyyətlə pilləkənlarla sürətlə qalxır. Yuxarı mərtəbələrin birindən iki hambal ağır bir şkafı hıqqana-hıqqana aşağı endirməkdədi.
Yanlarından keçəndə Fotoqrafın üzündə bir anlığa əndişə görünür.
Açıq qapıdan Qadının evinə girir.
Çaşıb qalır: Qadının mənzili bomboşdu.
Yüzlərlə üz şəkli, qəzet kəsikləri yerə səpələnib.
Curnallar, albomlar...
Bəlkə də  qadının yox olduğu hələ Fotoqrafa çatmayıb... Yerdəki şəkillərə baxaraq özünü itirmiş halda gəzişir.
Əyilib bir-iki şəklə baxır, sonra  tullayır.
Ortalığı təmizləyən qapıçıya yaxınlaşır.
Fotoqraf: Hara getdi, bilirsənmi?
Qapıçı: Xeyr. İyirmi ildən sonra iki gündə çıxdı.
Fotoqraf: Əşyaları?
Qapıçı: Hər şeyi bu əskiçilərə satıb.
Fotoqraf iç otaqdakı masanın fərqinə varır. Masanın üstündə eyni güzgü, ütü və lampa hələ də durur.
Əskiçi əlində çuvalla içəri girir. Bu üç əşyanı tez-tələsik çuvalına doldurub çıxır.
Fotoqraf Saatsaz dükanının qarşısında
Fotoqraf qaçaraq addımlarla Saatsazın dükanına yaxınlaşır. Baxanda duruxub qalır. Dükan bağlıdı.
Örtük salınıbdı.
Üzərində "Kirəlik dükan" lövhəsi.
Fotoqraf yenə də  ümidsizliklə qapını silkələyir.
Əlində yorğan teli olan Yorğançı keçir.
Yorğançı: Bağlıdı... Bağlıdı...
Fotoqraf: Hara getdi?
Yorğançı: İtib batıb.
Fotoqraf çarəsiz durur.
Bizans xarabalıqlarında
Fotoqraf bir divarda oturub. Qadının və Saatsazın izini itirməyin kədəri.
Haliç arxası. Çılpaq və cılız ağacların hüznü.
Fotoqraf Qadın üçün gətirdiyi üz şəkillərini boşluğa tullayır.
Fotoqraf evində
Fotoqraf gecə yatağının bir tərəfinə büzüşüb, solğun küçə lampasının işığında ehtirasla qadının sözlərini xatırlayır...
Fotoqraf: Salam. Necəsiniz... Əl tutuşacağıq... Ona atam haqqında danışacam? Əlləri haqqında bir də danış. Gülüşünü? Bir üzü digərindən fərqləndirən nədir? Hekayə... Mənalı üz sanki nəsə danışır... Susadım... Su gətirərsənmi?
Qapı döyülür. Fotoqraf qalxır, gedib qapını açır.
Poçtalyondu.
Poçtalyon: Teleqram var.
Fotoqraf teleqramı alır, dəftərə imza atır. Teleqramı açıb oxuyur.
Fotoqraf: "Atan öldü, evə gəl"!

Otağın ortasında donub qalır.
Avtobus
Şəhərlərarası avtobus boşluqdakı dümdüz yolla sürətlə şütüyür.
Fotoqraf arxa tərəfdə büzüşüb qalıb.
Pəncərəsindən yüzlərlə incə, narın qovaq görünür.
Avtobus gecə də yol gedir: alaqaranlıqda faraları görünür, sonrasa itir.

Ölülər şəhəri

Quru ölü ağaclar.
Ölülər şəhərinin ümumi görüntüsü.
Dumanlı bir səhər.
Fotoqraf boş bazardan keçir.
Tənha küçələr. Sıxıntı...
Fotoqraf ata evinin qapısında ayaq saxlayır, qapını döyür.
Ata evində
Atanın uzadılmış cənazəsi.
Fotoqraf meyidin yanında oturur.
Əlini atasının üzünə uzadır. Ölünün gözləri açıqdı. Fotoqrafın əli geri çəkilir.
Ata evinin çöl tərəfdən görüntüsü.
Fotoqraf büzüşmüş halda divanda yuxuya gedib.
Ana içəri girir, taxta ilişir.
Əli sevgiylə və xəfifcə oğlunun yanağında gəzinir.
Ana: Burada yatma, üşüyərsən.
Ana, Böyük qardaş, Fotoqraf nahar masasının arxasındadılar. Təmiz masa süfrəsi.
Yalnız Böyük qardaş  nəsə yeməkdədi.
Ana (Fotoqrafa): Üzün kül kimidi.
Səssizlik.
Fotoqraf:  Bu nə səsdir?
Böyük qardaş: Heç nə eşitmirəm.
Fotoqraf: Atamın gözləri qapanmır.
Böyük qardaş: Atamın gözlərini qapamaq üçün...
Ana: Atanızın gözləri qapanır artıq, siz narahat olmayın. Həmişə belə olmasını istərdi. Hamımız bir masanın ətrafında.
Kənarda, divar dibində atanın çəkmələri.
Ana: Sən də daha burda qal... Görüləsi iş çoxdu... Bu həftə mandıraya1 gedərsiniz. Olan-qalanı satıb qurtarmaq lazımdı...
İki qara geyimli, yekə qorxunc kişi bağa girir. Yanlarında tabut, çiyinlərində ip, asqı... Gəlin pəncərədən onları görür.
Gəlin: Gəldilər.
Oğullar masadan qalxarkən...
Ana: Dəfn vaxtı sizi gözü yaşlı görən olmasın.
Qəbristanlıq
Qəbir ətrafına toplanmış camaatın ümumi görüntüsü.
İmamın səsi: Fatihə!
Böyük qardaşla Fotoqraf dua oxunanda əllərini açırlar. Qəbrin içinə girmiş yaşlı bir kişi kəfənin üz tərəfini açır.
Yaşlı adam: Oğulları hardadı, oğulları hardadı? Gətirin bura.
Fotoqrafı atasının qəbri üstünə gətirirlər.
Yaşlı adam: Yaxşı bax, atandımı bu sənin?
Fotoqraf: (səssizcə) Atamdı...
Yaşlı adam: Eşitmədim. Bir də de.

Fotoqraf: Bəli, atamdı, atamdı bu mənim!
Mandıra yolunda
Fotoqraf və Böyük qardaş dəmiryolu boyu irəliləyirlər.
Dəmiryolu körpüsündən keçərkən Fotoqraf arxası üstə çevrilmiş bir tısbağa görür. Dayanıb düzəldir.
Böyük qardaş: Elə bil başqası olmalıydı mənim atam, o qəribə qadına aşiq olan adam deyil. Özümü inandırdım. Axşam evə qayıdanda özüm-özümə bu bizim ev deyil deyirdim... Bütün bunları sənin də hiss elədiyini, İstanbuldan buna görə qayıtmadığını fikirləşirdim.
Fotoqraf: Bilmirdim.
Böyük qardaş: Qadını ilk dəfə görəndə mandırada kiminsə yaxını bildim. Müəllimmiş... Əri də müəllimdi... Müəllim arvadının mandırada nə işi var?
Açıq yerlə gedirlər. Arxada uzun nazik bir qatar görünür. Fit çalır. Mühərrikin gurultusu...
Böyük qardaş: Məktəb üçün onlara yandırmağa odun verirəm, deyirdi atam. Tələbkar qadındı, o da hesab dəftərini qaydaya salır, deyirdi. Hər gün mandıraya getməyə başladı.
Böyük qardaş öndə, Fotoqraf arxada mandıraya gəlirlər. Ətrafda heyvanlar, iri traktor təkəri, paslı tənəkələr, güyümlər... İt hürüşməsi...
Mandıra evi
Fotoqraf atasının masasında oturub.
Atasını tanımaq istəyirmiş kimi ətrafa göz gəzdirir. Bir tərəfdə geniş yataq... Vita tənəkə qablarında iki çiçək... Qaz lampası...
Masanın siyirməsini açır, içində bir dəftər görür. Çıxarır.
Dəftərin səhifələrini çevirir.
Müəllim qadının təmiz işlək xətti.
Böyük qardaş gəlir.
Fotoqraf: Dəftər budumu?
Böyük qardaş başıyla təsdiqləyir.
Fotoqraf: Xətti həqiqətən gözəlmiş.
Böyük qardaş: Atam bura gəlməyimi istəmirdi.
Böyük qardaş əyilərək alışqan hərəkətlə masanın alt gözünü açır... Sədəflə işlənmiş bir qutunu masanın üstünə qoyur.
Qutunu açıb içini göstərir.
İki müşdük, yaxşı bir köhnə alışqan, bir bıçaq, qapaqlı, zəncirli bir saat, kiçik bir qutu.
Böyük qardaş: Seç.
Fotoqraf bir anlığa dayanır.
Diqqətlə saatı əlinə alır.
Fotoqraf: Digərləri qalsın.
Böyük qardaş: Yaxşı.
Alışqanı, bıçağı cibinə qoyur. Fotoqraf kiçik qutunu açır. Qutunun içindən bir qadın şəkli çıxır, üzü, gözləri qaralanıb, oyulub... Qorxunc bir görüntü.
Fotoqraf: Bunu sənmi eləmisən?
Böyük qardaş: Nəyi?
Böyük qardaşın səsi yalan danışdığını gizlətmir. O, içində qadın şəkli olan qutunu cibinə qoyur.
Böyük qardaş: Çox maraqlanırsansa, qayıdanda məktəbin yanından keçərik... Onu sənə göstərərəm...
Böyük qardaş evin başqa otağına keçir, iki ov tüfəngi gətirir.
Böyük qardaş: Ata ki, yalan danışmağa başladı, daha ata deyil (tüfəngləri masanın üstünə qoyur). Anam bunları evə aparmağımızı tapşırıb.
Böyük qardaş masanın gözündən mavi lentlə bağlı açar çıxarır.
Böyük qardaş: Bunu da...
İbtidai məktəb
Mərkəzdən uzaq, təbiətin qoynunda bir dövlət binası.
Dirəkdə bayraq...
Məktəblilər bağda "qaçdı-tutdu" oynayırlar...
Aralarında qadın müəllim. Başı açıqdı. Cəlbedicidi.

İki qardaş onu uzaqdan seyr edirlər.
Böyük qardaş bir anlığa qardaşına baxır.
Məktəblilərin nəşəli səsləri.
Qadın müəllim onu uzaqdan seyr edən Böyük qardaşla qardaşının varlığını daxili duyğuyla sezmiş kimi, bir anlığa dönür və iki qardaşa sarı baxır.
Ata evində
Gecə. Fotoqraf yatağına uzanıb, əlində tutduğu zəncirli saatına uzun-uzadı baxır.
Bayırda sönük işıq.
Çılpaq budaqlarda uğuldayan güclü külək.
Fotoqraf yana çevrilib yuxuya gedir.
Çay üzərindəki körpü
İki qardaş bir körpü üstündədilər.
Böyük qardaş oturub ayaqlarını suya sarı uzadıb.
Fotoqraf arxada ayaq üstədi.
Axan suyun şırıltısı.
Böyük qardaş: Bir üzə baxırsan, xəyala dalırsan... Amma gözünü açıb yumana qədər xəyal yox olur... Xəyal artıq ağlındadı, bu düzdümü? Həmişə yalan olmalıdı, ağlında yox... Yoxsa yanarsan... Fotoaparatını niyə gətirmədin?
Fotoqraf: (Dalğın) Bilmirəm.
Böyük qardaş: Çünki qəsəbə xəyalını kağıza köçürəcəm, nə olacaq, -deyə fikirləşdin, elə deyilmi?
Fotoqraf: (Bir an fikirləşir). Xeyr... (Qərarını deyir) Daha İstanbula qayıtmayacam...
Ata evi
Axşam.
Süfrə arxasında Fotoqraf, Ana, Böyük qardaş, gəlin oturublar.
Ana: Hansı ana oğlunun oxumağını istəməz... Amma heç bir ana oğlunun sərxoş şəkilləri çəkə-çəkə ömrünü başa vurmasını  da istəməz. Bir gün İstambula gedər, məktəbini qurtarıb, vəkil olarsan... Amma bir halda ki, qalırsan, böyük qardaşına yardımçı olacaqsan... İndi, oğlanlarım, gəlin sizə bir şey göstərəcəm...
Ana qabaqda, iki qardaş arxada əsən pilləlәkanlarla aşağıya, sandıq otağına enirlər.
Köhnə əşyalar, sobalar, manqal, xalı, qutular, sandıqlar, balaca mizlər, qəfəs...
Ana otağın başqa tərəfinə gedir.
Oradakı sandığı kənara çəkir, xalını yığır.
Döşəmə taxtasını yerindən qaldırır.
Böyük qardaşa sarı çevrilir.
Ana: Gəl...... Sox qolunu içəri...
Böyük qardaş qolunu dəlikdən içəri soxur.
Ana: Yaxşı, sox yaxşı...
Böyük qardaş nəsə tapır.
Ana: İndi onu çək çıxart.
Böyük qardaş dəlikdən kiçik, daşınan bir seyf çıxarır. Ana otağın ortasındakı masanın arxasında oturur.
Seyf masanın üstünə qoyulur.
Ana: Açarı ver, baxaq görək.
Ana Böyük qardaşdan açarı alır.
Seyfi açır. Qardaşlar maraqla baxırlar.
Ana özündən razıdı, məxmər bir kisə çıxarır.
Bağını açır.
İçindəkiləri  masanın üstünə boşaldır: qızıllar.
Ana: (Böyük qardaşa) Say baxaq, neçə dənədi... (Fotoqrafa sarı dönür) Böyük qardaşın bilir, bazar içindəki məscidin bitişiyində boş torpaq sahəsi var ha... atanın xalası oğullarının... İyirmi il tamam olur, hələ də qayıtmayıblar... Qayıtsalar  sahəni bizə ucuz verərlər...
Böyük qardaş qızılları sayır.
Böyük qardaş: Otuz yeddi.

Ana: Çox yaxşı... Bir də say, kisəyə qoy. (Fotoqrafa sarı dönür) Böyük qardaşın orada dükan tikdirək deyir... Bu iş sənlikdi... Sabah avtobusa minərsən, o biri gün onları tapıb qızılları verərsən (Cibindən bir kağız çıxarır). Bu ünvana...
Fotoqraf çaşqın halda əlindəki kağıza baxır.
Ana Böyük qardaşdan aldığı torbanın ağzını büzmələyir, Fotoqrafa uzadır.
Ana: Bu torbanın içində hamımızın gələcəyi var, unutma...
Avtobusda
Avtobusun pəncərəsindən axan görüntülər.
Ağaclar.
Fotoqraf avtobusdadı.
Avtobus gecə də yol gedir.
Dayanacaq
Avtobus yol üstündəki dayanacaqların birinə çatıb.
Fotoqraf avtobusdan düşüb. Amma başqa sərnişinlərlə birlikdə yeməkxanaya girmir.
Sıxıntıyla gəzişir.
İrəlidə bir kafe var. Ora gedir.
İçəridə televizora baxan adamlar.
Fotoqraf siqaret yandırır.
Geri dönmək istəyəndə qəflətən donub qalır: qadının üzünün görüntüsü.
Fotoqraf öncə görüntünün haradan və necə gəldiyini qavraya bilmir. Sonra fərqinə varır: diqqətini çəkən güzgüdəki görüntüdü.
İçəridəki televizorun əksi...
Kafe
Fotoqraf kafeyə girir.
Gözü ekrandakı qadındadı.
Qadının üzündə duyğulu bir ifadə var.
Fotoqraf əfsunlanmış, donmuş kimidi.
Bir stulda oturur, ekrandakı qadına baxır.
Ekranda görüntü dəyişir:
Saatsaz görünür. Saatsazın qarşısında bir stolüstü saat var, danışır.
Saatsaz: İllərlə saatların içində yaşadım... Saatların sehri həyatımın sirri oldu... Günlərin bir günü bu sirrin üzlərimizin bilməcəsiylə çözülə biləcəyini başa düşdüm... Beləcə, yuxularım başqasının yuxuları ilə qarışdı. Daha heç vaxt unutmaram... Çünki saatın üzü ürəyə yaxındısa insanın öz üzü danışır...
Ekranda saat görüntüləri. Padşah şəkilləri... Saat tıqqıltıları. Fotoqraf kafedəki dalğın, kədərli tamaşaçılarla birlikdə ekrandakı görüntülərə baxır.
Bayırdan avtobusun güclü siqnalının səsi eşidilir. Amma Fotoqraf yerindən tərpənmir.
Bir anlığa bayıra baxır.
Sonra gözünü yenidən ekrana dikir.
Siqnal səsi yenidən eşidilir.
Avtobus tərpənib dayanacağı tərk edir.
Eyni zamanda ekrandakı görüntü də qurtarır.
Boş ekranın parlaq işığı.
Qəhvəçi ekrana yaxınlaşır. Videodan kaseti çıxardır. Qapağına qoyur, oradakı kepkalı adama verir.
Fotoqrafın gözü videokasetdə və onu alan kepkalı adamdadı.
Kepkalı Adam kafedən çıxır.
Fotoqraf onun izinə düşür.
Kepkalı Adam kamyonetinə çatanda Fotoqraf ona yetişir.
Fotoqraf: Bir saniyə olar?
Kepkalı Adam: Buyur.
Fotoqraf: Bayaq baxdığımız... Sənindimi o?
Kepkalı Adam (şübhələnir): Neynirsən?
Fotoqraf: Almaq istəyirəm... Satarsanmı?

Kepkalı Adam: Əmanətdi!
Fotoqraf: Çox pul verirəm.
Kepkalı Adam: Mənim deyil, dedim. Sahibi qəsəbədədi.
Qapağın içindəki video kaseti pencəyinin içinə yerləşdirir.
Qəsəbə yolunda
Kamyon zil qaranlıq yolla irəliləyir.
Kepkalı Adam kamyonu sürür, Fotoqraf da yanındadı.
Gecənin  tənhalığı və qaranlığı.
Fotoqraf: Sahibi kimdi?
Kepkalı Adam: İndi görərsən.
Səssizlik. Qorxunc gecədə ağaclar.
Kepkalı Adam: İyirmi ildir, gecə vaxtı burdan keçəndə hələ də qorxuram.

Qəriblər şəhəri

Kamyon qəsəbənin əsas yolu ilə irəliləyir.
Küçələr bomboşdu... Vahiməli qaranlıq.
Kamyon başqa bir küçəyə dönür.
Qəsəbədə boşluq havası. Kamyon təmirçilər çarşısı ilə irəliləyir.
Qəribə, ürküdücü tikililər, evlər.
Kamyon lampası yanan bir təmirçixanaya az qalmış dayanır. Kepkalı adam kamyondan düşür.
Kepkalı Adam: Gözlə burda!
Kepkalı Adam təmirçi dükanındakı masada içki içən üç kişiyə yaxınlaşır. Onları salamlayır.
Masanın ucu tərəfində oturan, əldən düşmüş, görüb-götürmüş bir nəfərə, Qəsəbə Saatsazına yaxınlaşır.
Kepkalı Adam: Buyur, əmanəti gətirdim.
Videokaseti Qəsəbə Saatsazına verir. Onun qulağına kamyonda gözləyən Fotoqraf haqqında nəsə pıçıldayır.
Qəsəbə Saatsazı: (Masadakılardan üzr istəyir) Bir dəqiqə, icazənizlə...
Masadan qalxır. Videokaseti pencəyinin içinə qoyur. Ağır-ağır kamyona, Fotoqrafa yaxınlaşır.
Bir anlığa yaxından Fotoqrafa baxır. Bir gərginlik  anı...
Qəsəbə Saatsazı: Gedək, dükanımda danışaq?
Fotoqraf və Qəsəbə Saatsazı qaranlıq və bomboş küçəylə gedirlər.
Qəsəbə  Saatsazı: Sən bunu nə üçün bu qədər  istəyirsən?
Fotoqraf: (Düşüncəli) Səbəbinin izahı qəlizdi...
Qəsəbə Saatsazı hansısa sirdən söz açıldığını bilirmiş kimi başını yelləyir...
Qəsəbə Saatsazı: Bilirəm, çətindi (özündən razı). O qadını öncə yuxunda gördün, elə deyilmi?...  Mən əvvəlcə yuxumda gördüm, sonra dükanıma gəldi...
Qəsəbənin... tənha və qaranlıq küçələrində soyuq bir floresan lampasının görüntüsü. Floresanlı vitrində oyuncaq bir uşaq...
Uzaqdan qarovulçu fiti eşidilir.
Qəsəbə Saatsazının və hotelin yerləşdiyi küçənin ümumi görüntüsü. Yalnızlıq, hüzn duyğusu... Fotoqrafla Qəsəbə Saatsazı saatsaz dükanında üzbəüz oturublar. Aralarında rakı şüşəsi. Hərəsinin qarşısında bir qədəh,  bir azca ləbləbi...
Qəsəbə Saatsazı: Yuxumda gördüm ki, bir çarşıdayam... Çarşıda da ki, hər şey var, nə istəyirsən, ən yaxşı yeməklər, paltarlar, ipək qumaşlar, nələr, nələr... Bir də baxıb görürəm ki, bir dükanda da həyatlar satırlar... İstədiyin həyatı seçirsən,  o ruhun üzü sənin üzün olur, daha bəxtiyar yaşayırsan... İstədiyim üzü seçəcəyim anda bir qadın çıxdı qarşıma... Başa düşdüm ki, mələkdi... Dedi ki, Saatsaz, yaxşı fikirləşdinmi, bu yolun dönüşü yoxdu... Qorxdum. Tər içində oyandım. Günorta vaxtı bu qadını qarşımda gördüm... Burada, dükanda elə bil dilim tutuldu. Dedi ki, bura nə qəribə dükandı, nə qəmli halı var...
Bayırdan qarovolçu fiti eşidilir.
Fotoqraf dalğındı, maraqla qulaq asır. Saatsaz dükanındakı saatların tıqqıltısı.

Yoxsul, kiçik bir dükandı...
Saatları da müştəri cəlb etməyən. Arxada televiziya ekranı. Qəsəbə Saatsazı piştaxtanın üstündəki gözəl, baxımlı və iri saata işarə edir.
Qəsəbə Saatsazı: Bu saatı sevdi, oxşadı... Çox gözəl saatdı dedi, amma ruhunu itirdiyi üçün xarab olub. Yalnız sən təmir edə bilərsən onu, dedi. Yaxşı, - dedim, - sənin üçün təmir edərəm. Gülümsədi, bir çəngə pul çıxartdı, çoxlu pul... Yenə gülümsədi... (Piştaxtadan kaseti götürür). Bunu verdi. Əmanətdi, dedi, bax, yuxularını xatırlayacaqsan... Üzündə itirdiyin şeyi tapacaqsan... Başqaları da baxsınlar, onlar da xatırlayacaqlar... Gənc dostum, mən baxdım, başqalarına da göstərdim, amma heç nə anlamadım. Saatı da təmir eləmədim.
Fotoqraf: Nə vaxt gələcəyini dedimi?
Qəsəbə Saatsazı: Nə zaman təmir edəcəyimi soruşdu... Ən geci bir aya, dedim... Amma hələ də qurtarmamışam... Nəsə uydurmağa çalışıram. Yenə gələcəm, dedi, əmanətimə sahib ol (Dükanın qapısına baxır). Qapıda mavi bir maşın vardı, oturub getdi.
Fotoqraf: Maviydi, eləmi?
Qəsəbə Saatsazı: Yuxu mavisi... Bəlkə məlum olur ki, bu qadını yuxunda sən də görmüsən, sifətini görən kimi tanıdın, elə deyilmi?
Fotoqraf əlacsız qalır, cavab vermir.
Qəsəbə Saatsazı: Hərənin bir sirri var, buna qarışmaram... Amma mənə verdiyi əmanətdi... Əgər çox pulun yoxdusa, heç...
Fotoqraf: (Sözünü kəsərək) Qızıllarım var, sabah xırdalaram...
Qəsəbə Saatsazı: (Maraqla) Göstər baxaq.
Fotoqraf cibini qurdalayır, kisəni çıxarıb ağzını açır. Bir qızıl çıxarıb Qəsəbə Saatsazına uzadır. Qəsəbə Saatsazı qızılı götürür, yoxlamaq üçün əlində tutur. Fotoqrafın kisəsinə baxır.
Qəsəbə Saatsazı: Səndən on dənə istəyəcəyəm... Çox məsuliyyətli...
Fotoqraf çarəsizlik içindədi.
Qəsəbə Saatsazı: Yaxşı, doqquz olsun.
Fotoqraf daha səkkiz qızılı sayarkən Saatsaz diqqətlə ona baxır. Səliqəylə qapağına qoyulmuş videokaseti ona uzadır.
Qəsəbə Saatsazı: Nə mən səni tanıyıram, nə də bunu sən məndən almısan.
Fotoqraf ayağa qalxır.
Qəsəbə Saatsazı: Oturardın...
Fotoqraf: Hotel harada tapa bilərəm?
Qəsəbə Saatsazı: Düz qarşıda... (Arxasındakı televizorla videonu göstərir) Bunu da al... Ucuz verərəm. Otağında baxarsan...
Hotel saatsaz dükanının qarşısındadı.
Gecə, hhotelin görüntüsü. Fotoqrafın otağının işığı yanır.
Hotel otağında
Fotoqraf kaseti qoyub, ekrandakı görüntüyə baxmaqdadır.
Qadının üzü bütün görüntünü tutur... Haradasa bədənin toxumalarını göstərən bir işıq içində.
Sürəkli saat tıqqıltısı eşidilir. Qadının duyğulu üzü acı və dərin mənayla doludu.
Qadın: İllər öncə qarlı bir qış axşamı atam bir əhvalat danışmışdı... Bir vaxtlar hamının unutduğu kədərli bir ölkədə kiçik bir qızla atası tək-tənha yaşayırlarmış. Ata qızını elə sevərmiş ki, başqa bir həyatının olmasını istərmiş... Böyük bir qadın olanda qız Qaf Dağının arxasındakı quşu tapıb, bütün talesizlərin üzünü bir-birinə bənzədən tilsimi açacaqmış... Kiçik qız atasını dinləyə-dinləyə yuxuya gedər, yuxularında bir-bir bu işləri görərmiş... Amma səhər oyananda hələ də kiçik qız kimi qalmasına üzülərmiş. O qızın kim olduğunu sonralar başa düşdüm. Günlərin bir günü səhər qar yağarkən yuxularımdan yetkin bir qadın kimi oyandığım zaman... Bir saat qülləsinin altındakı şəhərdə məskunlaşanda... Qəmli hekayə danışanlarla bir-birimizi beləcə axtarmağa başladıq... Xəritə deyə bir-birimizin üzümüzə baxır, hekayə deyə ruhlarımızı masaya qoyuruq.
Qəriblər şəhərinin çarşısı
Səhər. Fotoqraf çarşıda gəzir.
Qəssab bıçaqlarını bülövçüyə veribdir.

Fotoqraf qəzet köşkünə girir.
Bir topa qəzet alıb çıxır. Hotelinə qayıdarkən qəssab və bülövçüylə qarşılaşır...
Hoteldə
Fotoqraf hotelə girir.
Hotel katibindən açarını alır.
Katib: Hələ nə qədər burdasınız?
Fotoqraf: Bir və ya iki həftə, bilmirəm.
Yuxarı, otağına qalxır.
Fotoqraf hotel otağındadı.
Pəncərədən bayıra, qarşıdakı Saatsaz dükanına baxır. Otaqdakı masanı pəncərənin yanına gətirir.
Mizi də masanın qarşısına qoyur. Oturur. Masanı bir az da qarşısına çəkir.
İndi oturduğu yerdən Saatsaz dükanını rahat görür. Daha yaxşı görmək üçün yerini düzəldir.
Fotoqrafın baxış bucağından Saatsaz dükanının görüntüsü.
Qəsəbə Saatsazı dükanın qapısında görünür, bir hissəni işığa tutub baxır.
Birdən qarşıdakı hotel otağından ona baxan
Fotoqrafı görür. Fotoqraf Saatsaz dükanına baxmağa davam edir...
Qəsəbədə Saatsaz dükanı
Bir başqa səhər.
Qəsəbə Saatsazı qadının qoyduğu xarab stolüstü saatı düzəltməyə çalışır.
Fotoqraf qapıdan girir, qoltuğunun altında qəzetlər, curnallar...
Kağız paketin içində yeməklər...
Fotoqraf: Dedim bir soruşum görüm, xəbər-ətər varmı?
Qəsəbə Saatsazı: Yox... Buna özümdən detal düzəldirəm, əsli deyil, amma hər halda işlədəcək...
Otursana...
Fotoqraf: Neçədə gəlmişdi o gün?
Qəsəbə Saatsazı: On iki, bir arası, günorta vaxtı.
Fotoqraf: Hardan gəldiyini demədimi? Şəhər, saat qülləsi varmış...
Qəsəbə Saatsazı: Heç nə demədi...
Qısa bir sükut. Tıqqıldayan saatlar...
Fotoqraf: Bu qəsəbədə vaxt necə keçir?
Qəsəbə Saatsazı: (Amansızcasına) Keçmir!... Ölənə qədər vaxt keçsin deyə, gözlərsən bu qəsəbədə ...
Hotel otağı
Fotoqraf pəncərənin önündə oturub qəzetdəki bir krossvordu həll edir.
Aradabir ya bayıra baxır, ya da atasından qalan zəncirli saata... Otağın və masanın halından Fotoqrafın uzun zamandı günlərini bu masada oturmaqla, pəncərədən Saatsaz dükanına baxmaqla keçirdiyi bəlli olur.
Külqabı ağzına qədər doludu... Yatağın üstündə qalaq-qalaq qəzet, curnal... Masanın üstündə portağal qabıqları...
Qapı döyülür. Fotoqraf dönür.
Xadimə içəri girir.
Xadimə: Otağı təmizləyim.
Fotoqraf: (istəmir) Qoy qalsın.
Qadın əlacsız çıxıb gedir. Fotoqraf otağın qapısını diqqətlə bağlayır.
Gecə.
Hotelin boşluğu və səssizliyi: hüzn duyğusu.
Fotoqraf otağında televizorun qarşısındadı.
Ekranda Qadının görüntüsü. Bu görüntünün yanında tutqun-tutqun ekrana baxan Fotoqrafın görüntüsü əks olunur... Qadın hekayəsini danışdıqca Fotoqraf da onunla birlikdə eyni vaxtda onun sözlərini təkrarlamaqdadır.
Bəlli olur ki, Fotoqraf qadına baxa-baxa hekayəsini əzbərləyib.
Qadın - Fotoqraf: Günlərin bir günü qar yağanda yuxularımdan yetkin qadın kimi oyandığım zaman... Bir saat qülləsinin altındakı şəhərdə məskunlaşanda... Hüzn hekayəçiləri ilə bir-birimizi belə axtarmağa başladıq. Xəritə deyə bir-birimizin üzümüzə baxır, hekayə deyə ruhlarımızı masaya qoyuruq...

Gecə. Hotelin ümumi görüntüsü.
Qadının görüntüsü ekranı tutur. Fotoqraf yenə kasetə baxmaqdadı.
Qadının həddindən artıq duyğulu üz ifadəsi.
Üzündə bir kədər, dərin bir hüzn.
Qadın baxışlarını ağır-ağır aşağı salır. Önündə Saatsaz oturmaqdadı.
Qadın əllərini yaxınlıq duyğusuyla onun çiyninə qoyur.
Saatsaz da öz düşüncələrindədi.
Səhər... Fotoqraf siqaret kötükləri, qəzetlər, kağız kəsikləri ilə dolu masasında məşğuldu.
Qəzetlərdən üz şəkilləri kəsir.
Sonra bu şəkillərdəki üz ifadələrini qadın baxdığı kimi böyüdücü ilə nəzərdən keçirir.
Daha sonra başqa kəsilmiş qəzet parçasındakı üzə baxır.
Ağzında siqaret var. Durub pəncərədən bayıra, Saatsaz dükanına baxır.
Qəsəbə Saatsazı əlində iri gözəl saatla dükanından çıxır, hotelə doğru gəlməyə başlayır.
Fotoqraf pəncərənin qarşısından çəkilir, məftunluğun alışqanlığıyla videonu işə salır və ekrandakı qadın görüntüsünə baxmağa, hekayəsini dinləməyə başlayır.
Vərdişi üzrə yatağının qırağında oturub. Qapı döyülür.
Fotoqraf qapını açır.
Qəsəbə Saatsazı qucağında saat, həyatından razıdı.
Fotoqraf saatla maraqlanmışdır.
Saatsazı içəri buraxır.
Qadının görüntüsü və hekayəsi televiziya ekranında davam edir.
Qadın: Bir saat qülləsinin altındakı şəhərdə məskunlaşanda...
Qəsəbə Saatsazı iri saatı masanın üstünə qoyur.
Qəsəbə Saatsazı: Saatı düzəltdim.
Səssizcə saatı qurur. Gözləyir, səs gəlmir.
Qəsəbə Saatsazı: Haydı, işlə də!
Saatı qurdalayır, dəqiqə əqrəbini itələyir. Saatdan tanış musiqi eşidilir: bir sirr və xoşbəxtlik anı...
Qəsəbə Saatsazı məmnundu.
Fotoqraf: Necə düzəltdin?
Qəsəbə Saatsazı: Orasını-burasını qurdaladım... Qalanını özü bilər. Mən də başa düşmürəm. Bir ay oldu, hələ gəlmədi...
Fotoqraf: Bir ay dörd gün...
Qəsəbə Saatsazı: Hər gün saat on iki-bir olanda mənim də səbrim tükənir... Bir də gələcəm, dedi... Röyadan çıxan kimi gələcək.
Qəsəbə Saatsazı televizor ekranına sarı dönür.
Ekranda üz görüntüləri, rəsmlər.
Maraq və qorxuyla baxır.
Qəsəbə Saatsazı: Bütün bunların hikməti nədi? Heç kəsin ağlı bir şey kəsmir bu işlərdən... Xəyallar, yuxular, saatlar.
Ekranda qadının sehrli görüntüsü...
Qəsəbə Saatsazı Fotoqrafa sarı dönür. Şəfqətlə, maraqla...
Qəsəbə Saatsazı: Kimin-kimsən yoxdumu sənin?
Fotoqraf: Var, gözləyirlər.
Qəsəbə Saatsazı: Gəl, səni götürüb bir az gəzdirim... Dostlar var...
Qəriblər gecəsi
İkisi birlikdə, Fotoqrafla Qəsəbə Saatsazı qəsəbədən çıxırlar. Gecə.
Qorxunc və bomboş bir anbar binası.
Qəsəbə Saatsazı qucağında iri saatla qabaqda, Fotoqraf arxada köhnə tikiliyə girirlər.
Anbar olduqca genişdi, üst tərəfdən iki çılpaq elektrik lampası ilə işıqlandırılıb...
Bir yanda sərilmiş paltarlar... Bir masa, bir neçə taburet... Qırıq-sökük kətillər... Üstü örtülü naməlum cihazlar... Bir soba, bir neçə sandıq, köhnə bir soyuducu. Üstündə ondan da köhnə radio.
Masa başında iki nəfər oturub: Su Məmuruyla onun Can Yoldaşı.

Qəsəbə Saatsazı onları Fotoqrafla anlaşılmaz nəsə göstərən ruh halıyla və qardaşlıq duyğusuyla tanış edir.
Qəsəbə Saatsazı: Salam. Bu dostum su işləri üzrə məmurdu...
Su məmuru: Salam... Dörd il oldu... Dövlət qəsəbənin su problemini həll edəcəm dedi. Bir gün mühəndislər, siyasətçilər gəldilər. İşə başlandı, bir həftədən sonra da məni bura gözətçi qoyub getdilər. Qorumağa bir şey də yoxdu. Unutdular məni burda.
Qəsəbə Saatsazı: Amma hər ay vilayətə gedir, şöbədən maaşını alır...
Su məmuru: Amma inanıram ki, bir gün xatırlayacaqlar.
Qəsəbə Saatsazı o biri adamı göstərir. Balaca, diqqəti çəkməyənin biri. Sobanın üstündəki sapılcanı qarışdırır.
Qəsəbə Saatsazı: Bu dostum da onun Can Yoldaşıdı.
Can yoldaşı: Salam.
Açıqkönüllülüklə bir salam verir.
Bir neçə saatdan sonra.
Anbarın ümumi görüntüsü bu ucqar yerdə kimlərinsə kasıb yaşadığını göstərir.
Masanın üstünə sapılca qoyulub, çörək, köhnə qırıq boşqab, çəngəl, bıçaq, rakı şüşəsi, qədəhlər...
Bir tərəfdə sandıq, üstündə saat...
Dördü də masanın ətrafında oturublar.
Can Yoldaşı səmimiyyətlə və həyacanla danışır.
Can Yoldaşı: Həkimlər xəstəyə bütün dərmanları veriblər, amma mədəsindəki ağrı keçməyib... Xəstə öləndə mədəni kəsib baxıblar, daş kimi ağac kök salıbmış mədəyə... Oğul atasından yadigar qalsın deyə bu ağacdan bıçağına sap düzəldir... İllər keçəndən sonra o bıçaqla turp kəsmək istəyir, turpa toxunmasıyla bıçağın sapı qopur. (Səssizlik). Yəni həkimlər xəstəyə turp yedirtsəydilər, ölməzmiş...
Qəsəbə Saatsazı: (Söhbətə maraq göstərmir). Bu həftə totalizatorda bir nəfərə on üç düşdü...
Can Yoldaşı: Yuxarı kəndlərə canavar gəlib, dul bir qadını parçalayıb...
Qəsəbə Saatsazı: O sənin dediyin, ayıdır...
Su Məmuru: Qurdlar artıq bura da gəlir.
Qısa səssizlik, sıxıntı duyğusu.
Qəsəbə Saatsazı cibindən kart çıxardır, qırmızıtoxmaq qadını göstərir.
Qəsəbə Saatsazı: Gəlin qız qaçdı oynayaq.
Qız qaçdı oynayırlar.
Masanın üstündə içki şüşəsi, qədəhlər, pul, kartlar...
Can Yoldaşının əli gətirir, bir dəstə pulu yığır.
Fotoqraf cibindən yenə pul çıxarır...
Su məmuru diqqətlə kart paylayır.
Yenə Can Yoldaşı udur.
Fotoqraf arağından bir qurtum içir.
Qəsəbə Saatsazı uduzduqca əsəbiləşir.
Qəsəbə Saatsazı: (Fotoqrafa) Sən də uduzursan, amma vecinə deyil.... Çünki qızıl kisəsi var... Pulun varsa, həmişə məğrursan.
Bayırdan ağ önlüklü iki nəfər iplə çəkib gətirdikləri bir atla ağır-ağır yaxınlaşırlar.
Qaranlıqda qorxunc bir görüntü.
Atın cingiltili nal səsləri...
İçəridə Can Yoldaşı yenə udub.
Pulları yığır.
Nal səsləri açıq-aşkar eşidilir.
Qəsəbə Saatsazı: Allah lənət eləsin! Qəssablar!
Qəssabla şagirdi, arxalarında at içəri, anbar binasına girirlər.
Su məmuru: (Burnuyla Fotoqrafa işarə edir) Yad deyil, bizdəndi.
Qəssablar atı yanlarından apararkən Can Yoldaşı ayağa qalxır. Cibindən çıxartdığı ağ dəsmalı atın gözlərinə bağlayır.
At bir dəri, bir sümükdü, heysiz və yaşlıdı.
Can Yoldaşı: Yum, canım, gözlərini, yum, kədərli atım, yum, məhzunum... Görüləsi heç nə yoxdur bu

tərəfdə.
Fotoqraf arxa tərəfə aparılan atı diqqətlə izləyir.
Qəsəbə Saatsazının başı kartlara qarışıb.
Atı bir pərdənin arxasına çəkirlər. Yerə yıxdıqları bilinir. At kişnəyir.
Qəsəbə Saatsazı: (Qəzəbli, əsəbi) Allah bəlanı versin... Kağız parçası...
Su məmuru: Kartla danışma... Danışma daha!
Qəsəbə Saatsazı: Danışıram mən, məğrur olmadığım üçün uduzan kimi danışıram... Mən insanam, ürəyimi, sirrlərimi açıram, dostum!
Pərdənin arxasından süzülən işıqdan istər-istəməz qəssabların atı kəsdikləri görünür.
Fotoqraf dözə bilmir, masanın arxasından durub uzaqlaşır...
Küncdəki taxçanın üstündəki köhnə radionun dalğalarını qarışdırmağa başlayır. Hardasa bambaşqa, nəşəli bir həyat olduğunu bildirən musiqi.
Qəssab pərdənin arxasından içəri girir.
Əlində önlüyünə sildiyi qanlı bıçaq.
Fotoqrafı salamlayır.
Qəssab: Xoş gəldin.
Qumar masası dağılıb.
Qəsəbə Saatsazı iri, gözəl saatı qurdalayır. Saatın musiqisi eşidilir.
Su məmuru masada təkbaşına diqqətlə qumarın nəticələri ilə bağlı hesab aparır... Arxada Qəssab və Can Yoldaşı ağları çəkib gərərək ütüləməyə hazırlayırlar...
Fotoqraf uzaqdan onları izləyir. Sərxoş, kədərli...
Qəsəbə Saatsazı yenə saatın musiqisini çaldırır.... Musiqi qəflətən kəsilir. Saat xarab olub. Qəsəbə Saatsazı saatı hirslə silkələyir...
Qəsəbə Saatsazı: Ay Allah!
Xarab saatı yerə qoyur.
Sərxoş halda taxta sandığın üzərinə arxası üstə uzanır. Başı sandığın ucundan tərsinə yerə doğru sallanır. Əli ilə qəribə işarələr edərək yayğın sərxoş səslə dillənir.
Qəsəbə Saatsazı: Dünyanı tərsinə görəndə başa düşürəm ki, bütün lampalar küllük olacaq, bütün masalar ağac, bütün aynalar baş olacaq.... (Fotoqrafa üz tutur). Gənc dostum o zamana kimi gözləyəcəkmi? Məğrurdur.... Məğrurlar gözləyir... Çünki həmişə istədikləri nəsə var... İstəyənlər gözləyərlər, gözləsinlər, amma mən gözləməyəcəm! Heç bir şey!
Fotoqraf kədərlə Qəsəbə Saatsazına baxmaqdadı.
Su məmuru diqqətlə hesab çəkməyindədir.
Qəsəbə Saatsazı: İdman totalizatorunu gözləməyəcəm.... Gecəni gözləməyəcəm.... Saatları gözləməyəcəm... Qadınları gözləməyəcəm...
Fotoqraf hekayəsini davam etdirir.
Fotoqraf: (Səs) Yalnız gözlədiyim günlərdə deyil, hekayəm qutarandan sonra da hey bunu fikirləşdim.
Səhər.
Hotelinə doğru gedən Fotoqrafın görüntüsü.
Qəsəbənin boşluğu, cansıxıcılığı.
Təklik duyğusu...
Fotoqraf: (Səs) Oraya, gözlədiyim qəsəbəyə qadının qayıdacağına necə əmin ola bilərdim? ... Niyə gözləyirdim?... Nəyi?...
Qəsəbədə külək... Sovrulan yarpaqlar, kağızlar...
Fotoqraf: (Səs) Gözlədiyim vaxt ərzində ətrafımdakıların, bütün dünyanın bambaşqa bir yerə vardığının fərqindəydim artıq. Yenə də evimə, anamla böyük qardaşımın yanına qayıtmaq ümidimi axıra qədər qoruyub saxladım. Düz on dörd ay on dörd gün o qəsəbədə o qadını gözlədim. Uzun qışın sonuna gedirdik. Qızıllarımın axırıncısını da xırdalamışdım.
Ağaclıq və islanmış yolda qadının mavi maşını sürətlə irəliləyir... Yuxudakı kimi, harada olduğu bəlli deyil....
Hotel - Hotelin qarşısı: Qarşılaşma
Fotoqrafın otağı.

Divarlar aylardır qəzetlərdən, curnallardan kəsilmiş yüzlərlə, minlərlə üz şəkilləri ilə doludu.
Bütün divarları dolduran bu üz şəkilləri ucbatından hotel otağı qorxunc bir yerə çevrilibdi.
Hər yerdə qalaq-qalaq qəzetlər, curnallar, albomlar....
Aramsız işləyən televizor...
Fotoqraf masasında əyləşib.
Saçı-başı dağınıq, üzü tüklü, yorğun-arğın... Çox dəyişib... Pəncərədən bayıra, qəsəbədəki Saatsazın dükanına hələ də ehtirasla baxır.
Saatsaz dükanının hotel pəncərəsindən görüntüsü.
Qapı açılır və dükandan iki nəfər çıxır.
Biri əlində iri, gözəl saatı tutan Qəsəbə Saatsazıdır, o birisi yekə, qara bir adam...
Hotelə doğru irəliləyirlər.
Fotoqraf onlara baxır, amma çox da maraq göstərmir.
Öz aləmindədi, dalğındı.
Qapı döyülür.
Fotoqraf qalxır.
Yan-yörəsindəki qəzet topasını, zibili götürüb qapını açır.
Xadimə qadın: Zibili ver.
Fotoqraf əlindəki zibili və kəsik qəzetləri ona verir.
Xadimə Qadın: Otağı da təmizləyim...
Fotoqraf: Lazım deyil.
Fotoqraf qapını Xadimə Qadının üzünə örtür. Xadimə Qadın əlində zibil qalır, söylənir. Bir əlində qəzet yığını, o biri əlində zibil qabı ağır-ağır pilləkənlərlə enir.
Zibili bir tərəfə atır.
Kəsilmiş qəzet yığınını hotelin giriş otağında başqa yerə, bir taxçanın üstünə qoyur.
Eyni vaxtda bir musiqi eşidilir: gözəl, iri saatın melodiyası...Amma pozuq melodiya.
Xadimə Qadın dolu külqabını boşaltmaq üçün əlinə alanda giriş mərtəbəsindəki otaqda Qadın ilə Qəsəbə Saatsazının üzbəüz oturduqları görünür.
Qabaqlarındakı taxçada iri, gözəl saat var. Qəsəbə Saatsazı əzik-üzükdü, suçlu görünür. Xarab saatın pozuq melodiyası kəsilir.
Qadın xəstə uşağı oxşayan kimi saatı oxşayır.
Qadın: Fikir eləmə, amma buna təmir demək olmaz, sən bu saatı daha da öldürmüsən... Ruhunu verməmisən ona...
Qəsəbə Saatsazı: Çox çalışdım mən bununla... Bir ara elə gözəl çalırdı ki...
Qadın: (Kədərlə ah çəkir) Bu Saatsazın dükanı kiçikdir, amma nə məhzundu deyə düşünmüşdüm. Əmanətimə baxar və düzəldər deyirdim.
Qəsəbə Saatsazı içdən utanaraq əzilib-büzülür.
Qadın: Əmanətə baxdınmı?
Qəsəbə Saatsazı: Əmanətə (Özünü itirir)? Baxammadım...
Qadın əsəbiləşir, durumdan sıxıldığı hiss olunur. Ayağa qalxıb var-gəl edir.
Qadın: Saatsaz, verdiyim əmanətə arxa çevirmisən.
Qəsəbə Saatsazı: (Çaşqın, utancaq) Məndə deyil ki...
Qadın: Necə?
Qəsəbə Saatsazı: Cavan bir uşaq bir dəfə baxdı, tilsimə düşdü...
Qadın, Xadimə Qadının taxçaya qoyduğu qəzet kəsiklərinin, üz şəkillərinin fərqinə varır.
Dalğınlıqla əlini bu qəzet, curnal, üz şəkilləri yığınının üzərində gəzdirir...
Qəzet, kağız yığını, üzlər, Qadına vaxtilə baxdığı fotoşəkilləri, qəzetləri xatırladır. Fikirlidi.
Qadın: Necə uşaqdı?
Qadın yuxarı mərtəbəyə qalxan pilləkənin başındadı...
Qəsəbə Saatsazını nəsə xatırlayan kimi dinləyir... Daxili bir hisslə bir anlığa yuxarı, pillələrdən yuxarı baxır.
Qəsəbə Saatsazı: Geri qaytarmır... Buralı deyil... Ondan ayrılmır... Gecə-gündüz baxır... Hey baxır...
Qadın birdən gerçəkliyə qayıdır. Qəsəbə Saatsazı onu dilxor edir... Saata bir daha baxır...

Qadın: Çox adama unutduğu yuxusunu xatırlada bilərdi bu...
Qadın qətiyyətlə hoteldən çıxır. Qapı qarşısında gözləyən mavi maşınına sarı gedir.
Qəsəbə Saatsazı suçluluq duyğusuyla saatı götürüb qadının arxasınca qaçır.
Maşının yanında ona çatır, Yekə Adam qadın üçün maşının qapısını açıb.
Qəsəbə Saatsazı: Əslində sizi heç unutmamışam... Əmanətini də gətirəcəm, tezliklə, bu yaxınlarda...
Qadın (Maraq göstərir): Yaxındamı?
Qəsəbə Saatsazı: Bəli, bu yaxınlarda... Uşaq bütün günü baxır... Gecə-gündüz baxır... Gözləyir...
Qadının maşına minmək üzrə olduğunu başa düşən kimi Qəsəbə Saatsazı təlaş keçirir...
Qəsəbə Saatsazı: (Çarəsizliklə) Dükanıma gəlin... Yeni, başqa bir saatım var, çox gözəldi!...
Qadın maşına minmişdir.
Qadın: Necə saatdı?!
Qəsəbə Saatsazı qadını dükanına aparmaq qəsdinin həyəcanındadı.
Qəsəbə Saatsazı: Çox gözəl! Baxarsınız...
Qəsəbə Saatsazı təlaşla dolanıb o biri qapıdan maşına minir... Mühərriki işləyən maşın ağır-ağır ekrandan çıxır... Kamera ağır hərəkətlə yuxarı qalxanda hotelin pəncərələrindən biri görünür.
Fotoqrafın aylarla önündə oturub qadını gözlədiyi pəncərədi bu...
Amma Fotoqrafın oturuşu və baxış bucağı irəlidəki Saatsaz dükanına baxmaq üçün hesablandığından oradan hotelin qarşısındakı maşın görünmür. Fotoqraf Qadının maşınını yalnız qarşı səkiyə, saatsaz dükanına yaxınlaşanda görür.
Mavi maşını saatsaz dükanının qarşısında görən Fotoqraf ayağa qalxır, pəncərədən aydınca görünür.
Fotoqraf dükana yaxınlaşan mavi maşını görəndə gözlərinə inanmır, şövqlə baxır...
Qəsəbə Saatsazı maşından düşür, dükanın qarşısında Qadını gözləyir.
Qadın Yekə  Adamın açdığı qapıdan çıxır, saatsaz dükanına yönəlir.
Dükanın qapısında qadın bir anlığa daxili bir hisslə yavaşıyır.
Bəlkə də Qəsəbə Saatsazı ona nəsə deyib... Qadın sezgiylə dönüb hotelə baxır. Hotelin pəncərəsindən şövqlə ona baxan Fotoqrafı görür.
Qadın geri dönür, səkiylə  hotelə doğru qaçır...
Gözləri hotel pəncərəsindədi.
O da gördüyünə inanmayan kimidi.
Amma üzündə bunu gözlədiyini, bildiyini göstərən yumşaq, duyğulu bir ifadə var.
Pəncərədən ona baxan Fotoqrafa sarı qaçır.
Səkidən düşür, hotelə doğru bir-iki addım atır.
İndi qadınla Fotoqraf üz-üzədilər.
Qadının üzündə şəfqət, acı sevgi...
Fotoqraf örtülü pəncərənin arxasından üzündə inamsız bir ifadəylə qadına baxır. Əlləri bütün gücüylə şüşəyə dirəyib. Qadına doğru bir addım atan kimi şüşə qırılır.
Qadın bir anlığa dayanır. Sanki vəziyyətini düşünür... Geri dönür, sürətli addımlarla maşına doğru gedir.
Qadın: Gedirik.
Qəsəbə Saatsazı əlindəki iri saatı yerə qoyur. Qaçaraq qadının yolunu kəsməyə, onu dayandırmağa çalışır.
Qəsəbə Saatsazı: Nə olar, getməyin! Orada aylardı sizi gözləyir. Nə olar, getməyin. Əmanət də ondadı...
Yekə Adam Saatsazı itələyir.
Fotoqraf Qadına çatmaq üçün sürətlə hotel pilləkənlərini enməkdədi.
Qadın maşına minir.
Yekə Adam da minir.
Maşının mühərriki işə düşür.
Qəsəbə Saatsazı: Gəlir... Getməyin, gözləyin!
Mavi maşın hərəkət edir... Maşın uzaqlaşarkən hotelin qapısında Fotoqraf görünür.
Uzaqlaşan maşının arxasınca ümidsizcəsinə bir neçə addım atır.
Qəsəbə Saatsazının yanına, saatsaz dükanının qarşısına çatanda dayanır.
Fotoqraf: Hara getdilər?
Qəsəbə Saatsazı artıq bezibdi.
Qəsəbə Saatsazı: Bilmirəm.

Fotoqraf çarəsizcəsinə dörd tərəfinə baxır. Büzüşdürülüb yerə atılmış bir kağız parçası... Əyilib götürür.
Fotoqraf: Bu nədi?
Qəsəbə Saatsazı: Məni itələyən ayı yeyirdi... Konfetdi...
Fotoqraf konfet kağızını açır, içinə yazılmış misraları oxuyur.
Fotoqraf: "Durma səfər et diyari-qəlbə
Can-baş qo rəhgüzari-qəlbə".
Fotoqraf konfet kağızının o biri üzünü çevririr. Burada bir saat qülləsi var. Bir şəhərin simvolu...
Fotoqraf: Saat qülləsi!
Bir-birlərinə baxırlar. İkisi də eyni şeyi fikirləşirlər.
Qəsəbə Saatsazı Fotoqrafın niyyətini başa düşür.
Qəsəbə Saatsazı: Getmə ora. Qarışma bu işə...
Fotoqraf ona qulaq asmır...
Sürətlə ondan aralanır.
Fotoqraf gecə avtobusda, şəhərlərarası yoldadı.
Avtobus qaranlıqda irəliləyir.
Fotoqraf avtobusun salonunun işığında əlindəki konfet kağızına, kağızdakı qüllə şəklinə baxır.
Saat qülləsinin görüntüsü.

Qəlblər şəhəri

Qəlblər şəhərinin ümumi görünüşü.
Qarşıdakı təpədə saat qülləsi, arxada şəhər.
Fotoqraf şəhərin küçələrini dolaşır.
Bir tinə dönür.
Qarşısına saat qülləsi çıxır. Qüllənin görüntüsü...
Fotoqraf başqa bir küçəylə getməkdədi.
Qarşısına saat qülləsi çıxan kimi dayanır.
Fotoqraf daha ucqar bir küçəylə gedir.
Sanki əsəbidi, narahatdı.
Dönüb geri baxarkən yenidən saat qülləsini görür, bir az da təlaşlanır.
Başqa bir küçədə bir dükanın qarşısında bir əyirici çalışmaqdadır.
Fotoqraf ona yaxınlaşır.
Fotoqraf: Bu qəsəbədə saat görə bilməyəcəyim bir küçə yoxdumu?
Əyirici: Yoxdu. Saatı görməyəcəyin yer yalnız saat qülləsinin içidi...
Qüllənin küçədən görünüşü.
Fotoqraf qülləyə baxır.
Fotoqraf: Buralarda Saatsaz varmı?
Əyirici: İrəlidə, sağda...
Fotoqraf qəsəbənin ucqar məhəlləsində yol gedir.
Bir tinə gələndə bir anlığa durur, çaşqındı. Divarda bir afişa, yerə düşmüş yol hərəkəti nişanı, tor içindəki toplar, bütün bu vəziyyət və küçə. Şəhərlər Şəhərlərindəki saatsaz dükanının yerləşdiyi küçəni xatırladır...
Qadının yuxu mavisi maşını da bir az irəlidə, kənardadı.
Fotoqraf maşına yaxınlaşır, sehrlənmiş kimidi.
Fotoqraf maşında oturub.
Radiosunu qurdalayır. Güzgüyə bağlı nəzərliyə toxunur.
Kənarda bir uşaq "səksək" oyanır. Əskiçi Şəhərlər Şəhərindəki küçəni başına götürən bir səslə səslənir.
Əskiçi: Əskiçi, əski şeylər alıram, əskiçi!...
Qəflətən maşının sol yanında Qadın görünüb keçir.
Qətiyyətlə küçə boyunca irəliləyərək uzaqlaşır.
Fotoqraf heyranlıq və çaşqınlıqla Qadının gedişini izləyir.

Maşından çıxıb Qadının dalınca gedir.
Yuxudakı kimi qadına yaxınlaşmadan, varlığını hiss etdirmədən dalınca gedir.
Qəflətən nəsə görərək donub qalır.
Bir tindən Saatsaz çıxır.
Saatsaz Qadına doğru hərəkət edir.
Əlində bir paket var.
Səkinin kənarında birləşirlər. Saatsaz əlindəki paketi Qadına göstərir.
Fotoqraf bir qapının arxasında gizlənərək onlara baxır.
Qadınla Saatsaz birlikdə paketi açırlar.
Qadın qutunun içindən nəyisə əlinə alır, nə olduğu görünmür.
Qadınla Saatsaz ortaq iş görən, eyni məsuliyyəti daşıyan iki nəfərin maraqlı, diqqətli hərəkətiylə davranırlar.
Uşaqlarıyla maraqlanan ər-arvada bənzər halları da var.
Fotoqraf birlikdə olmamağın əzginliyi və acısıyla onlara baxır. Qadınla Saatsaz arasında, Fotoqrafı kənarda qoyan ortaq bir dünya var.
Fotoqraf Qadınla Saatsazın incəlik və şəfqətlə baxdıqları qutudakı şeyin nə olduğunu görhagördə onların arasına bir kamyon girir.
Şəhərlər Şəhərində Qadınla Saatsazı itirəndə aradan keçən kamyon kimi qırmızı bir kamyon.
Maşın keçən müddətdə Qadınla Saatsaz yoxa çıxıblar.
Fotoqraf çaşır.
Açıq bir evin qapısının bağlandığını görür. Qapıya yaxınlaşıb döyür.
Qapı açılır: yaşlı bir xala görünür, əlində bir qab.
Yaşlı xala: Aa, sən südçü deyilsən!
Fotoqraf: İçəri kimlərsə girdi.
Fotoqraf qapıdan içəri uzanıb sağa-sola göz gəzdirir, amma heç kimi görmür...
Yaşlı xala: Kimlərdənsən, oğlum?
Fotoqraf Qadınla Saatsazın hara gedə biləcəklərini fikirləşir.
O biri tinə keçir.
Boş küçə boyu irəliləyir.
Yenidən başqa tinə dönür, heç kəsi görmür.
Geri qayıdır, başqa küçəyə dönərkən...
İrəlidə Saatsazın getdiyini, bir qapıdan içəri girdiyini görür. Qaçaraq o qapıya sarı gedir.
Diqqətlə, ağır-ağır içəri girir.
Qapı bir bağçaya açılır. Fotoqraf bir neçə pillə qalxır. Ağaclar, bitkilər arasıyla irəliləyir.
Ekranda oturan Saatsazın arxası görünür.
Qarşısında da bir nəfər.
Eyni vaxtda yerdəki qırıq lampa ayağının altında qalır.
Çıxan səsdən irəlidə, ağların arasında, masada oturan cütlük hürkür.
Dönüb baxırlar.
Saatsazla Qadın deyillər... Olsa-olsa gizlicə görüşən aşiqlərdi.
Fotoqraf Saatsaz ilə Qadını yenidən itirdiyini başa düşür. Ümidsizlik və çaşqınlıq içində qalır.
Geriyə, küçəyə qayıdır.
Küçədə eyni qız, Şəhərlər Şəhərindəki Saatsaz dükanı yerləşən küçədəki qız kimi, "səksək" oynayır.
Tor içində toplar baqqal dükanındakı kimi yellənir. Ağlı, yaddaşı qarışdıran bir sehrli an...
Gecəyarısı.
Fotoqraf tək-tənha meyxanədədi. Stollar yığılıb, stullar stolların üstünə qoyulub.
Fotoqraf masasında yorğun, əzgin oturub. Önündə bir rakı şüşəsi. Bir qarson ortalığı yığışdırır, stulları stolun üstünə ağzıüstə qoyur. Fotoqrafa yaxınlaşır, qulağına üzr istəyirmiş kimi pıçıldayır.
Qarson: Bağlayırıq!
Gecə.
Fotoqraf Qəlblər Şəhərinin boş və qaranlıq küçələrində, təkbaşına dolaşır.
Kədər, təklik və çarəsizlik duyğusu.

Bir tinə sarı dönəndə saat qülləsi xəyalət kimi yenə qarşısına çıxır.
Saat qülləsinə heyrət və hürküylə baxır...
Gecə kafesində
Səhər.
Gecəni gecə kafesində keçirən Fotoqraf başını bir masaya qoyub yatır.
Gecə kafesində gün başlayıb: ilk çaylarını içənlər, siqaretlərini tüstülədənlər, gəvəzəlik edənlər...
Ucqar Qəlblər Şəhərinin adamları...Yoxsul, yorğun, üzü tüklü kişilər...
Divarlarda mənzərə rəsmləri, əski güləşçilərin tabloları... Zamandan kənar bir ab-hava...
Bir qocanın oxuduğu qəzetin manşetində Çinin Yaponiyaya hücuma keçdiyi yazılıb...
Yuxuya dalmış Fotoqraf masanın silkələnməsinə oyanır. Masasına qoçu geyimli, kepkalı, lacivərd pencəkli bir nəfər oturub.
Fotoqrafın oyandırdığının fərqinə varır, görüb gülümsəyir.
Lacivərd Pencəkli Adam: Günaydın... (Çayçıya) Bizə iki dəmli çay...
Cibindən bir məktub çıxarır, səssizcə oxuyur. Çayçı iki çay gətirib masaya qoyur.
Lacivərd Pencəkli Adam cibindən bir simit çıxarır, ikiyə bölərək yarısını Fotoqrafa uzadır.
Fotoqraf istəmir, çayını qarışdırır.
Lacivərd Pencəkli Adam bundan inciyir. Dərs verən kimi danışır.
Lacivərd Pencəkli Adam: Sən dərdinlə savaşmazsansa, ömrün boyu yaxanı buraxmaz... qorxunc bir xəstəlik kimi... Boynunu bükərsən, dərd adamı yerə soxar... (Çayından bir qurtum içir). Mən illərlə bunu çəkmişəm!
Verdiyi dərsdən razıdı. Ayağa durur.
Lacivərd Pencəkli Adam: Bu gün ruhum qurtulur!
Əyilir, yan stullardan iri bir stolüstü saatı götürüb kafedən çıxır.
Fotoqraf ilk anda ona reaksiya vermir.
Amma qucağında iri bir saatla kafedən çıxan adamın vitrinin qabağından keçərək uzaqlaşdığını görəndə oyanır. Ani olaraq qərarsızlıq keçirir.
Tez ayağa durub, onun dalınca gedir.
Kafedən çıxan Fotoqraf bir tinə dönəndə Lacivərd Pencəkli Adamı irəlidəki dar küçənin o biri başında görür.
Qucağında saatıyla küçədən yoxa çıxır.
Fotoqraf səssizcə onun dalınca gedir.
Fotoqraf Lacivərd Pencəkli Adamın bir həyətə girdiyini görür.
Görünməməyə çalışaraq diqqətlə onu izləyir. Onu itirməkdən qorxduğu üçün aradabir irəli gedir.
Lacivərd Pencəkli Adam Qəlblər Şəhərinin ucqar məhəlləsinə gəlib.
Yoxuşla qalxır, bir tinə dönür, sonra qəti addımlarla başqa tinə dönür.
Arxasında onu diqqətlə izləyən Fotoqraf... Ətraf bomboşdu... İt hürüşmələri eşidilir.
Fotoqraf gizləndiyi küçədən Lacivərd Pencəkli Adamın dar bir küçənin qurtaracağındakı qapıya yanaşdığını görür.
Qapı açılır, Lacivərd Pencəkli Adam içəri girir.
Qapıda bu dəfə Yekə Adam görünür. Fotoqraf tində gizlənir.
Yekə Adam küçəni gözdən keçirib içəri girir. Fotoqraf gizləndiyi tindən çıxıb qapıya doğru gedir. Qapıya yaxınlaşır. Qapıdan saat asılıbdı. Fotoqraf cəsarətini toplayıb qapını döyür.
Qərarlıdı, qapını bir də döyür.
Açılan qapıda Yekə Adam görünür. Hədələyici, qorxunc bir görkəmi var.
Yekə Adam: Bəli?
Fotoqraf bir anlığa dayanır.
Fotoqraf: Ürəyimi açmağa gəlmişəm... (Bir anlığa, fikirləşir). Saatlar barədə... Hekayəm var...
Fotoqraf birdən qarşısındakı Yekə Adamı xatırlayır: Qəriblər şəhərində qadına cangüdənlik edən Yekə Adamdı bu.
Yekə Adam: Haradan?
Fotoqraf cəsarətlə danışır.
Fotoqraf: Uzun yoldan... Şəhri-qəlbə...

Qəlblər evi

Yekə Adam Fotoqrafı içəri buraxır. Qapı örtülür.
Yekə Adam qabaqda, Fotoqraf arxada pilləkənlərlə bir meydançaya qalxırlar...
Yekə Adam yol göstərir, Fotoqraf bir otağa girir.
Fotoqraf otaqdadı, həyəcanlıdı, nə olduğunu anlamağa çalışır.
İçəridə stulda oturan on-on iki adam var...
Kişilər, bir neçə qadın, kəndli, kiçik məmur geyimli adamlar...
Dərdlilər, kədərlilər, ümidsizlər, yaşlılar... Hamısının əlində, qucağında özləriylə gətirdikləri saatları var. Gözləyirlər.
Fotoqraf əndişəli və narahatdır, onlarla heç bir əlaqə qura bilmədən gözləmə otağında aşağı-yuxarı gəzişir. Girdiyi qapıya baxır.
Yekə Adamı görməyib otaqdan çıxır.
Fotoqraf yenidən meydançadadı.
Aşağı enən, yuxarı qalxan pilləkənlər görür burada. Qarşısında da başqa bir qapı.
Ani tərəddüddən sonra yuxarı qalxan pilləkəni seçir.
Pilləkənlə ağır-ağır, diqqətlə qalxır.
Yuxarıda açıq bir qapıdan içəri baxır.
Əvvəlcə çaşır, amma diqqətlə baxmağını davam etdirir...
Bir masada Saatsaz dik oturub. Oturduğu masanın örtüyü, arxadakı pərdə Fotoqrafın Qəriblər Şəhərində baxdığı videokasetindəki kimidi.
Saatsazın qarşısında bir kamera, kameranın arxasında çəkənin kürəyi görünür.
İşıq yanır.
Saatsaz bir anlığa fikirləşir.
Kamera qarşısında danışmağa alışqan adam kimi rahatca danışır.
Saatsaz: Üzümüzdə itən mənanı yalnız xatırlamaqla tapırıq... İtirilmiş gözəl zamanları tapırıq... Acını xatırlayaraq... Anladaraq... Ruhumuzdakı gizli saatın rəqqaslarını axtararaq... Saatlar xatırlayar...
Sözləri qurtaranda yana dönür; əlində saat, növbəsini gözləməkdə olan yaşlı bir adamı masaya dəvət edir.
Saatsaz: Buyurun.
Saatsaz yerini yaşlı adama verir. Kiçik çəkiliş otağını tərk edir. Kameranın yanına gəlib çəkilişə göstəriş verir.
Saatsaz: (Yaşlı Adama) Hazırsınızmı, əfəndim? (Operatora) Başlayın.
Yaşlı Adam masa arxasında narahat oturub, əlindəki stolüstü saatını qarşısına qoyub.
Titrək, qırıq səslə dərdini, hekayəsini bütün səmimiyyətiylə danışmağa başlayır.
Yaşlı Adam: Həyatda ən çox qızımı sevirdim... Ən çox qızımı... Gözəl qızımı... Amma o da anası kimi, məni bir gün atıb getdi... Bir gün yatağımdan qalxanda baxdım ki, otağı boşdu... bomboş...
Saatsaz kameranın kiçik ekranındakı görüntünü incələyir... Əlini operatorun çiyninə toxundurub çəkiliş yerini tərk edir.
Saatsaz: (operatora pıçıldayır) Davam edin...
Saatsazın otaqdan çıxdığını görən Fotoqraf tələsik yerini dəyişdirir.
Az öncə Fotoqrafın gizləndiyi meydançaya çıxan Saatsaz bir anlığa dayanır. Elə bil nədənsə şübhələnib. Şəhərlər Şəhərindəki dükanından çıxar-çıxmaz elədiyi bir hərəkətlə, üstündə, ciblərində nəsə axtarır. Bayıra çıxır.
Fotoqraf tələsik Saatsazdan qaçarkən başqa bir otağa giribdi. Burada da əvvəlcə girdiyi otaqdakı kimi, nə baş verdiyini qavraya bilmir. Uzunsov otaqda... bir-birinə qarışan danışıq səsləri eşidilir... Fotoqraf anlamağa çalışaraq sehrlənmiş kimi maraqla otaqda irəliləyir...
Aralı düzülmüş stullarda oturan kədərliləri, dərdliləri görür. Hərəsinin qabağında çəkiliş yerində olduğu kimi bir masa, masaların üstündə də özləri ilə gətirdikləri bir saat.
Hamısı tək-tək öz hekayələrini, dərdlərini danışır, ürəklərini boşaldırlar... Bəlli olur ki, bura çəkiliş öncəsi yerdi...
Fotoqraf otaqda irəliləyərkən hekayə danışanları bir-bir dinləyir.

Birinci masada əlli-əlli beş  yaşlarında eşməbığlı bir fəhlə oturub. İllərlə çalışıb, əldən düşmüşün biridi. Geyimi solğun, sadə və təmizdi.
Çünki öz dilimi danışammıram... Çünki öz dilimi danışdığım zaman başqasının dilini danışır deyirlər... Mən də daha bir ərizə verdim... Çünki öz dilimi unuda bilmirdim... Çünki öz dilimi unutsam, sanki başqasının dilini heç xatırlaya bilmərəm... Bir ərizə də verdim... Çünki öz dərdimi anlada bilmirdim... Öz dərdimi anlatsam...
Onun yanındakı masada orta yaşlı, başıörtülü bir ev qadını hekayəsini danışır.
Ağacın altındakı bulaqla mətbəximin pəncərəsinin arası uzun yoxuşdu... Amma mətbəx pəncərəmdən bulağı görürəm. Bulaq aşağıdadı, əlimdə su dolu vedrələr yoxuşu çıxanda ev aşağıda olaydı, deyə fikirləşirdim... Yoxuşu dolu qablarla deyil, boş qablarla çıxardım.
Üçüncü masada şəhərli olduğu bilinən, bir az da Fotoqrafa bənzəyən bir gənc hekayəsini danışır.
Keçən gecə səni yenə yuxumda gördüm. İnsan mənim kimi sevərsə, eyni şəkildə sevilməyi arzulayar... Bunu ümid kimi yaşayar... Yuxumda mənim sən olduğum yuxumda...
Dördüncü masada Fotoqraf gecə kafesindən başlayaraq izlədiyi Lacivərd Pencəkli Adamı görür.
İri saatını masasının üstünə qoymuşdur. Danışır.
Lacivərd Pencəkli Adam: Dərdə yenilməyim deyə illərlə axşamlar günəşin batdığı saatlarda kafeyə getdim... Səhərləri kədər məni basmadan özümü işə verdim.... İllərlə...
Lacivərd Pencəkli Adam Fotoqrafı görəndə yoldaşını görmüş kimi gülümsəyir...
Lacivərd Pencəkli Adam: Gələcəyini bilirdim. Gəl otur...
Yerindən durur, əlacsız qalan Fotoqrafın çiynindən tutub masaya oturdur.
Masaya oturmaq Fotoqrafı həyəcanlandırır. Bir anlığa yanındakı masada ürəyini boşaldan gənci dinləyir.
Lacivərd Pencəkli Adam: Saatın hanı?
Fotoqraf qətiyyətsizlikdən sonra  atasının saatını yadına salır. Saatı cibindən çıxarır.
Lacivərd Pencəkli Adam: Ürəyinə yaxın tut ki, üzün danışsın...
Fotoqraf atasının zəncirli saatına diqqətlə baxaraq xatırlayır... Ürəyini boşaltmağa hazırdı.
Yekə Adam otağın qapısından içəri girir, masalarda oturaraq hekayəsini danışan kədərliləri dinləyərək irəliləyir.
Fotoqrafla Lacivərd Pencəkli Adamın oturduğu masaya gələndə dayanır...
Lacivərd Pencəkli Adam: Bu gənc ürəyini boşaldacaq! Hazırdı...
Dəri Pencəkli Yekə adam qabaqda, Fotoqraf arxada Qəlblər Evinin qəribə dəhlizindən keçirlər.
Pilləkənlərlə enir, saatların tıqqıldadığı otaqlardan keçir, yenidən başqa pilləkənlərdən çıxırlar.
İçəridəki qəribə şeylərə uyğun labirinti xatırladan keçidləri olan qəribə və basırıq bir yerdi bura.
Pilləkənlərdə, dəhlizlərdə saatlar tək başlarına tıqqıldayaraq işləyirlər.
Bir keçiddən keçərkən Fotoqraf açıq bir qapıdan içəri baxır. Saatsaz masasının başında, içəridə işləyir. Əlindəki bir saatla məşğuldu. Artıq alışdığı yeni həyatının rahatlığı içindədi.
Bir an dayanır, qapıdan onu seyr edən Fotoqrafa baxır...
Amma Fotoqrafı xatırlamır.
Bir anlığa tərəddüd keçirən Fotoqraf Yekə Adamın arxasınca yoluna davam edir.
Fotoqraf çəkiliş otağına girib, çəkiliş masasına oturub. Qarşısında kamera...
Lampalar yananda üstünə güclü işıq düşür. Dərindən nəfəs alır. Bəlkə də hekayəsinə necə başlayacağını hələ bilmir.
Sonra getdikcə daha duyğulu səslə danışır.
Danışdıqca sanki xatırlamaqdadı, yuxudan oyanmaqdadı...
Fotoqraf: Bir zamanlar ... Bir zamanlar gözəl bir qadın, bir yeniyetməni itmiş bir xəzinə arxasınca göndərmişdi... Xəzinənin sirrini atasından öyrənmiş gözəl qadın xəritə üzlərdədi deyirmiş... Gənc də qadının söylədiklərini axtarmaq üçün üzləri xəritə olanların arasına gedir... Şəhər-şəhər gəzir, ölü qəsəbələrə, yox olmuş vadilərə baş çəkir... (Durur, fikirləşir, gözləri dolur) Bir gün unudulmuşların arasında itəndə gözəl qadını da itirdiyini başa düşür... Öz üzündə bir xəritə olduğunun o zaman fərqinə varır. Oğlan artıq xəzinəni deyil, o sirli qadını axtarmağa başlayır... Bir gün bir şəhərə gəlir... hara gedirsə, saat qülləsi görür və qadının varlığını hiss edir...
Görüntüdə qaranlıqdan  çıxan qadının üzü görünür. Üzündə şəfqət dolu, duyğulu bir ifadə ... Fotoqrafı kənardan seyr edərək dinləyir.

Fotoqraf: Mənə baxır deyə düşünür... Və o zaman bədbəxtliklə dolu həyatından ancaq qadının baxışıyla çıxa biləcəyini anlayır... Çünki gənc həmişə yuxularında qadını görür... Və hər dəfə yuxudan göz yaşlarıyla oyanır... Onu sevir. Onu özü itgin ruhunu axtaran kimi, yuxudan oyanan kimi sevir.
Qadının üzü indi də həddindən artıq ifadəlidi.
Fotoqraf daxili bir duyğuyla başını qaldırır və Qadının ona baxdığını görüb donur. Qadın təlaşa düşür. Gözlərini Fotoqrafdan çəkmədən ağır-ağır geriləyərək qaranlıqda yoxa çıxır.
Fotoqraf masadan qalxır, Qadının yoxa çıxan görüntüsünə doğru gedir.
Qarşısına bir qapı çıxır.
Qadının üzünü bu qapının pəncərəsindən görmüşdür...
Qapını açır.
Yeni və qəribə bir işıqda, yeni bir məkanda bir neçə addım atan kimi Qadını görür.
Qadın qəribə bir şəkildə işıqlandırılmış bir otaqda, irəlidədi. Fotoqrafdan uzaqlaşır.
Bir yuxu ab-havası...
Qadın Fotoqrafın varlığını hiss edərək birdən dayanıb çevrilir.
Fotoqraf: Səni tapacağımı bilirdim...
Aralarında yeddi-səkkiz addımlıq məsafə var, amma qadın çox uzaqdayımış kimidi.
Saat tıqqıltısı...
Qadın: Ah canım, heç nə bilmirsən...
Fotoqraf bəlkə də qadına yaxınlaşacaqdı, amma ayaq səsləri eşidilir: Arxada dəri pencəkli Yekə Adam görünür. Qadının qoruyucusu kimi...
Qadın: Çıx artıq burdan... İndi...
Fotoqraf uzaqlaşa bilmir, amma Yekə Adam hədələyici ədayla yaxınlaşır.
Fotoqraf yaxınlaşan Yekə Adamın varlığı qarşısında geriləyir... İstəməyə-istəməyə uzaqlaşır.
Qadın Fotoqrafı kədərlə izləyir, o da öz yoluyla gedir, bir anlığa ayaq saxlayır.
Fotoqraf öndə, Yekə Adam arxada pilləkəndən çıxış qapısına doğru irəliləyirlər.
Fotoqraf bir anlığa dayanır, amma Yekə Adamın varlığını daha çox hiss edir.
Fotoqraf Qəlblər Evinin qapısından çölə çıxır. Yekə Adam pilləkənlərin başında, gözünü qırpmadan onu izləyir. Cibindən bir konfet çıxarıb ağzına atır...
Saat qülləsi
Qəlblər Evindən çölə çıxan Fotoqraf qarşısında yenə saat qülləsini görür. Saat qülləsinin Qəlblər Şəhərinin damları arasından görünüşü...
Fotoqraf saat qülləsinə baxır.
Ağlına nəsə gəlir. Qülləyə doğru gedir.
Qıraq bir məhəllədə, köhnə evlər arasından Fotoqraf bir təpəyə dırmanır... Təpədə gözlərini heç cür ayıra bilmədiyi saat qülləsi var...
Fotoqraf təpənin başına çatır, qətiyyətlə saat qülləsinə girir. Qapıya yaxınlaşır. İtələyən kimi qapı açılır. İçəri girir.
Qüllənin içindəki pilləkənlə saat qülləsinin birinci mərtəbəsinə çıxır.
Qətiyyətli, dayandırılmaz bir mexanizm taqqıltısı.
Saatın iri dişlərini, ağırlığını, ağır-ağır yellənən böyük rəqqaslarını görür.
Qüllədə heç kim yoxdu.
Yuxarı, ikinci mərtəbəyə çıxan pilləkən diqqətini çəkir.
O pilləkənlə ikinci mərtəbəyə çıxır.
İkinci mərtəbənin pəncərəsinin taxta örtükləri arasından Qəlblər Şəhərinə baxır.
Şəhərdə saat qülləsinin görünmədiyi yeganə nöqtədədi indi... Şəhərin ümumi görünüşü.
Tıqqıltısı böyük bir gurultuyla eşidilən çarx və yay...
Fotoqraf ikinci mərtəbədə, bir küncdəki taxta yatağa uzanıb. Üstündə qaba bir ədyal var...
Amma saatın tıqqıltısından yata bilmir...
Fotoqraf birinci mərtəbəyə enib, saatın mexanizminə yaxınlaşır. İri rəqqası əliylə ortadan tutanda saat dayanır.
Çaşqınlıq, bəxtiyarlıq doğuran səssizlik anı...
Dönüb, qüllə gözətçisinin masasındakı qrafindən stəkana su doldurub içir.

Gecə. Səssizlik. Saat qülləsinin bayırdan görüntüsü.
Əqrəblə yelqovan tərpənmir.
Saat dayandırıldığı dörd otuzu göstərir...
Saatın mexanizmi, dişləri qaranlıqda tərpənməz qalıb.
Qüllə gözətçisinin masası, stulu, sürahisi eləcə qaranlıqda durur.
Fotoqraf yerdəki yataqda rahatca yatır.
Qəlblər Şəhərindən gecə saat qülləsinin görüntüsü.
Şəhər də səssizdi.
Yalnız işıqforun yanıb-sönən narıncı işığı...
Səhər. Gün işığında yatan Fotoqraf.
Birdən bir çan səsi. Fotoqraf hürkərək oyanır. Sanki harada olduğunu kəsdirə bilmir. Üstdəki çandır səslənən. Saata bağlı çəkic çana vurur...
Aşağı mərtəbədə qadın, saat mexanizminin yanındadı.
Qadın manivelanı çevirərək ağırlığı qaldırır, saatı qurur.
Ağırlığı qaldıran zəncirin şıqqıltısı.
Rəqqasın tıqqıltısı.
Fotoqraf yuxarı mərtəbədən birinci mərtəbəyə enir.
Qadın onu görür, amma qətiyyən çaşmır. Saatı qurur.
Qadın: Saat dayananda burada olduğunu başa düşdüm... Niyə dayandırdın?
Fotoqraf: Unutmaq istəyirdim.
Qadın: Yaxşı yatdınmı?
Fotoqraf: Yatdım, amma unuda bilmədim... Yuxumda səni gördüm.
Qadın saat mexanizminin yanından aralanır, qüllə gözətçisinin masasının arxasında oturur. Masada bir dərman şüşəsi, qatar bileti və cədvəl var.
Qadın: Qatar bileti, cədvəl... Burdan qatar keçmir axı...
Fotoqraf: Yuxumda səni görəcəyimi bilirdim.
Qadın: (Kədərlə və zarafatyana) Yuxunda nə edirdim?
Fotoqraf: Üzümü iki tərəfdən tutmuşdun... Hekayəmin axırını danışacaqdım... Amma yenə yuxumu axıra çatdırmadan oyandım...
Qadın onu diqqətlə dinləmişdir.
Fotoqraf Qadının əyləşdiyi kiçik masada oturur.
Fotoqraf: Yuxumun arxasını danış mənə... Heç olmasa bir dəfə yuxudan rahat oyanım...
Qadın: (Düşüncəli, fikrə dalmış kimi) Yuxular heç tamamlanır ki... Hekayələr tamamlanır... Keçənlərdə bir adam gəlmişdi, üzü acıyla doluydu... Lotereya satıcısıydı... Bir biletin üzərində bir qadın şəkli görüb, heç vaxt onu unuda bilməyib... Bütün həyatı axarını dəyişib... Lağa qoyublar... Üzündə elə baxış var idi ki... Ona axtarmasını demək istərdim... Şəkildəki qadını deyil, axtarmağı sevəcəyini demək istərdim...
Səssizlik
Fotoqraf: Yenə əvvəlki kimi olaq... Sənə fotoşəkillər gətirim. Üzlərə baxıb hekayələrini danışarsan... Hər şey əvvəlki kimi olsun... Səni sevirəm... Sevirəm səni...
Qadının uzanan əli Fotoqrafın üzünü şəfqətlə, sevgiylə oxşayır. Fotoqraf üzünü qadına sarı qaldırır.
Fotoqraf: Sevirəm səni.
Qadın: Məni axtardığını fikirləşmədiyimi güman edirsən? Bir gün axtardığın yerlərdə qabağına çıxmaq istəməzdimmi?... Bəzən bunu o qədər çox istəyirdim ki, sənin baxışın mənim baxışım olurdu... Kədərlilərin olduğu bir şəhərdə məni axtarar deyə fikirləşirdim... Mən də o şəhərdə olurdum... İndi qəzet kəsiklərindəki üzlərə baxır deyirdim... O üzlərin hər biri mənim üzüm olurdu... Səni bəzən elə fikirləşirdim ki, baxdığın bütün dünya mən olurdum... Məni deyil, dünyanı istədiyini artıq o zaman başa düşürdüm...
Fotoqraf qadının əllərini tutur, sifətinə qoyur. Pıçıltıyla soruşur.
Fotoqraf: Nə görürsən, de...
Qadın sevgiylə xatırlayır.
Qadın: Səhərləri gətirəcəyin şəkillər qədər səni də gözləyirdim... Maraqlı, ağıllı baxışlarını sevirdim... Amma gətirəcəyin şəkillərdən bir gün axtardığım üzü də tapacağımı bilirdim...